RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 231 (8824) ÇƏRŞƏNBƏ AXŞAMI, 26 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## “Mənim üçün ən böyük mükafat keçmiş köçkünlərin gözlərindəki sevincdir”



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı rayonunda səfərdə olublar

## Xanlıq-Qubadlı avtomobil yolunun təməli qoyulub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də Qubadlı rayonunda səfərdə olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 10-cu kilometrliyindən Qubadlı şəhər mərkəzinə gedən Xanlıq-Qubadlı yolunun təməlqoyma mərasimində iştirak ediblər.

Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına və birinci xanıma Şərqi Zəngəzur iqtisadi rayonunda tikintisi aparılan avtomobil yolları barədə məlumat verdi.

Bildirildi ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində Prezident İlham Əliyevin tapşırığı ilə icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri də Xudafərin-Laçın yoludur. Başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Xudafərin su anbarı yaxınlığından keçən hissəsindən götürən bu yolun uzunluğu 56,4 kilometrdir. Qubadlı-Eyvazlı avtomobil yolunun uzunluğu 26 kilometr, eni 3,5 metr olacaq. Qubadlı-Xınzirək avtomobil yolunun uzunluğu 23,5 kilometr olacaq. Hər iki yol iki hərəkət zolaqlı inşa edilir.

Bu yollar Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində tikilir.

Ardı 2-ci səh.

## Özbəkistan Respublikasının Prezidenti zati-aliləri cənab Şavkat Mirziyoyevə

Hörmətli Şavkat Miromonoviç!

Özbəkistan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Seçkilərdə qazandığınız inamlı qələbə ölkənizin rifahı yolunda həyata keçirdiyiniz siyasi xəttin qardaş Özbəkistan xalqı tərəfindən dəstəklənməsinin, əsl lider kimi şəxsinizə bəslənən böyük inam, hörmət və etimadın parlaq təzahürüdür.

Azərbaycan ilə Özbəkistanı xalqlarımızın ortaq mənəvi dəyərlərindən qaynaqlanan möhkəm dostluq və qardaşlıq münasibətləri birləşdirir. Bu sarsılmaz təməllər üzərində qurulmuş əlaqələrimizin, qarşılıqlı faydalı əməkdaşlığımızın hazırkı səviyyəsi və gündən-günə genişlənməsi xüsusi məmnunluq doğurur.

Əminəm ki, zəngin milli-mənəvi dəyərlərimizdən güc alan Azərbaycan-Özbəkistan dostluğu və strateji tərəfdaşlığı qardaş xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da yüksələn xətlə inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli Şavkat Miromonoviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Özbəkistan Respublikasının əmin-amanlığı və firavanlığı naminə ali dövlətçilik fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 oktyabr 2021-ci il*

◆ Zəfərin izi ilə

## Şuşa indi bütün Qarabağa nur saçır




### Zəfər qalasında ən müasir üsullarla elektrik xətləri çəkilir, yeni yarımstansiyalar tikilir

“Zəfər yolu” ilə Füzili və Xocavənddən Şuşaya doğru irəlilədikcə ətrafımızda iki fərqli mənzərə diqqətimizi cəlb edir. Bir tərəfdə müasir dəmir dirəklərə birləşdirilmiş yüksəkgərginlikli elektrik xətləri, digər tərəfdə 1960-cı illərin çürümüş taxta dirəkləri üstündəki qırıq-qırıq olmuş xətlər...

Müasir elektrik sistemi, əlbəttə ki, şanlı Zəfərin göstəricisi, köhnələr - işğaldan öncə həmin ərazilərdə qeyri-qanuni məskunlaşmış əhalini təmin edən çürük xətlər isə artıq geridə qalmış işğal dövrünün qalıqlarıdır.

Köhnə xətlər hardasa yarımçıq qırılır, yoxa çıxırsa, yeni elektrik xətləri isə Şuşanın çətin dolanbac yolları ilə bizimlə bərabər Zəfərimizin rəmzi olan şəhərə qədər uzanır.

#### Şuşaya işıq necə çəkildi?!

Hər tərəfdə qazıntı-söküntü, tikinti-qutruculuq işləri gedir. Əvvəlki reportajlarımızda şəhərdəki quruculuqdan, Şuşaya qədim Kirs dağından su xətti çəkən qəhrəmanlardan bəhs etmişdik. Bu dəfə isə dağlardan, dərələrdən, yamaclardan keçməklə nəinki Şuşanı, eləcə də işğaldan azad edilən bütün ərazilərimizi elektik enerjisi ilə təmin edən qəhrəmanların fəaliyyəti ilə tanış olduq. Şuşanın İşıq İdarəsinin rəisi Elxan Əhmədovun bələdçiliyi ilə şəhərin enişli-yoxuşlu küçələrini dolaşaraq görülən işlərə şahidlik etdik.

Düşmən Şuşanı tərk edib qaçarkən bütün infrastrukturlar kimi, elektrik xətlərini, yarımstansiyaları da tamamən məhv etmişdi. Amma Şuşanın işğaldan azad edildiyi gündən, yəni noyabrın 8-dən cəmi bir həftə sonra, noyabrın 16-da şəhərdə işıq yandı. “Azərişıq” ASC həmin tarixdə Yuxarı Gövhər ağa məscidini işıqlandırıb düşmənə gözdağı verdi. Soyuğa, şaxtalı havaya baxmayaraq, bu qurumun əməkdaşları dayanmadan çalışdılar və tez bir zamanda Şuşanı nurlandırdılar...

Ardı 9-cu səh.

## Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “İnstaqram” səhifəsində Qubadlı rayonundan foto paylaşıb



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “İnstaqram” səhifəsində Qubadlı rayonundan foto paylaşıb.

AZƏRTAC fotonu təqdim edir.

## «Xoş gəlmisiniz Zəngilana»



**Günlər, aylar və illər bir-birinə calanır və zaman deyilən anlayışın hüdudlarını aşaraq əbədiyyətə qovuşur. Erməni işğalçıları da işğal olunmuş Azərbaycan torpaqlarında haqqı və ədaləti unudub özlərini “əbədiyyətin ağası” və “zamanın hökmdarı” kimi aparırdılar.**

Saxta bir qürrə ilə vaxtın onların xeyrinə işlədiyini düşünürdülər. Elə sanırdılar ki, illər ötəcək və Azərbaycan məğlubiyyətlə barışacaqdır.

Lakin Azərbaycan Prezidenti cənab İlham Əliyev nikbin bir əzmkarlıqla ömrünün 18 ilini bu qələbəyə həsr etdi, bütün dünyanın qibtə edəcəyi ordu yaratdı, ölkənin müdafiə qüdrətini ən yüksək səviyyəyə qaldırdı, xalq-iqtidar birliyini Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə möhtəşəm gücə çevirdi. Onun bütün istiqamətlərdə, o cümlədən ordu quruculuğu sahəsində apardığı dərin islahatlar, beynəlxalq münasibətlərdəki diplomatik nailiyyətləri zamanı bizim xeyrimizə işləməyə vadar etdi.

18 illik möhtəşəm hazırlıqdan sonra Müzəffər Ali Baş Komandan yaratdığı Azərbaycan Ordusu ilə 44 gün ərzində işğalçı erməni faşist ordusunu darmadağın etdi, özlərini qalib və döyüşkən bilən fərari erməni əsgərinin “qalib” görkəmini sabun köpüyü kimi partlatdı. On mindən yuxarı qorxaq erməni əsgəri Qarabağı ildırım sürəti ilə tərk edib yalnız canını qurtarmaq hayında qaldı. Müharibə bitən vaxtdan bir il ötsə də, bu “qalib ordu” hələ də Qarabağ ərazisində atıb qaçdıqları əsgərlərinin leşlərini daşımaqdadır. “Döyüşkən erməni ordusu” haqqında əfsanəni bizim qətiyyətli Ali Baş Komandan müzəffər Azərbaycan Ordusu ilə birlikdə elə Qarabağ torpaqlarında dəfn etdi. Bütün dünya 30 ilə yaxın “döyüşkənliyi” ilə poz verib lovğalanan erməni ordusunun acınacaqlı aqibətinin şahidi oldu.

Ardı 8-ci səh.

## Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Qubadlı şəhərinin Baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Qubadlı şəhərinin Baş planının hazırlanması üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə ilkin olaraq 500,0 (beş yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 oktyabr 2021-ci il*

# “Mənim üçün ən böyük mükafat keçmiş köçkünlərin gözlərindəki sevincdir”

## Xanlıq-Qubadlı avtomobil yolunun təməli qoyulub







Əvvəli 1-ci səh.

Xudafərin-Laçın avtomobil yolunun Xanlıq yaşayış məntəqəsindən ayrılaraq Qubadlı şəhərinə qədər 14 kilometr uzunluğunda yeni avtomobil yolu inşa ediləcək. Prezident İlham Əliyevin tapşırığına əsasən, Qarabağın inkişaf planı nəzərə alınmaqla Xudafərin-Laçın və Xanlıq-Qubadlı avtomobil yolları dörd hərəkət zolaqlı olacaq. Yeni inşa olunan yollar işğaldan azad edilmiş Zəngilan, Qubadlı və Laçın rayonlarının ərazisindən keçir. Avtomobil yolu Qubadlı və Laçın şəhərləri də daxil olmaqla, bu rayonların 30-dan çox yaşayış məntəqəsini əhatə edir.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Qubadlı” Yarımstansiyasının açılışında iştirak ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də sistem əhəmiyyətli 110/35/10 kV-luq “Qubadlı” Yarımstansiyasının açılışında iştirak ediblər.












AZƏRTAC xəbər verir ki, “Azərenerji” ASC-nin prezidenti Baba Rzayev dövlət başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yarımstansiya barədə məlumat verdi.

Bildirildi ki, yarımstansiyanın tikintisi ilə paralel olaraq Qubadlının Azərbaycanın ümumi enerji sisteminə qoşulması, rayonun dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsi üçün Füzulidəki “Şükürbəyli” Yarımstansiyasından “Cəbrayıl” Yarımstansiyasına giriş-çıxış olmaqla 76 kilometr məsafədə ikidövrəli 110 kV-luq yüksəkgərginlikli “Qubadlı-1”, “Qubadlı-2” elektrik verilişi xətti çəkilib. 150-160 MVt gücötürmə qabiliyyətinə malik yeni xətt layihələndirilərkən rayon üçün səciyyəvi iqlim parametrləri - buzlaşma, küləyin maksimal sürəti, qarın qalınlığı, çirklənmə və başqa amillər, o cümlədən baş verə biləcək qəza hallarının qarşısının alınması, lokallaşdırılması üçün zəruri sistem yaradılıb.

Yeni çəkilən xətt boyunca ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi, internet üçün fiberoptik kabel çəkilib və bununla da Qubadlıya təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürücülük qabiliyyətinə malik sürətli internet xətti gətirilib. İldırımötürücü xəttin içərisində keyfiyyətli internet şəbəkəsi, o cümlədən SCADA dispetçer idarəetmə sistemi informasiyalarının, proqram təminatının, televiziya, telefon, rabitə, müşahidə kamera, canlı bağlantı, mərkəzləşdirilmiş arxiv şəbəkəsinin və başqa məlumatların sinxronlaşdırılması həyata keçirilib. Bu günə qədər “Azərenerji” ASC tərəfindən Şuşa, Füzuli, Kəlbəcər, Cəbrayıl, Zəngilan və Qubadlıda 110 kV-luq yeni yarımstansiyalar tikilib. Bütün yarımstansiyalara çəkilən elektrik xətlərində ildırımdan mühafizə və yarımstansiyalararası siqnal mübadiləsi üçün fiberoptik kabellər quraşdırılıb. Beləliklə, işğaldan azad edilmiş ərazilərin 80 faizi Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, elektrik xətləri üzərindəki optik kabellər vasitəsilə yarımstansiya və rayonlardakı lazımi strukturlar internetlə təmin edilib. İşğaldan azad edilən digər rayonlardakı yarımstansiyalarda olduğu kimi, Qubadlıda da Dördüncü Sənaye İnqilabına uyğun olaraq intellektual enerjisistem şəbəkəsi konsepsiyası həyata keçirilərək müasir, dayanıqlı, tam rəqəmsallaşdırılmış yarımstansiya yaradılıb.

Dövlət başçısı yarımstansiyanı işə saldı.

Məlumat verildi ki, yarımstansiyanın rəqəmsal idarə edilməsinin prioriteti olan iki əsas məsələ - rəqəmsallaşmaya inteqrə olunan avadanlıqların təmin olunması və idarəetmə üçün informasiya mübadiləsi və aktivlərin onlayn müşahidəsinə imkan verən fiberoptik kabel şəbəkəsinin yaradılması məsələləri həllini tapıb.

“Qubadlı” Yarımstansiyasının işçi personalı üçün təhlükəsiz və rahat iş şəraitinin yaradılması məqsədilə müasir texnologiyalar əsasında yeni İdarəetmə Mərkəzi tikilib. Yarımstansiyada iki ədəd 25 MVA gücündə transformator quraşdırılıb. Yarımstansiyanın idarəetmə sistemi müasir tələblərə cavab verən Micro SCADA sistemi yaradılmaqla “Azərenerji”nin mərkəzi SCADA sistemi ilə əlaqələndirilərək birbaşa mərkəzdən idarə edilməsi təmin olunub.

Qeyd edək ki, işğala qədər 38 min nəfərdən çox əhalisi olan, sənaye və digər təsərrüfat sahələri üzrə Qubadlı rayonunun ümumi tələbatı 12 MVt olmaqla bir ədəd 110 kV-luq yarımstansiyadan qidalanıb. 47 mindən çox əhalinin məskunlaşması proqnozlaşdırılan Qubadlıda inkişaf istiqamətləri nəzərə alınmaqla 2040-cı il üçün elektrik enerjisi tələbatının 38 MVt-dan artıq olacağı gözlənilir. Yeni “Qubadlı” Yarımstansiyası tikilərkən bu amil nəzərə alınıb.

## “Mənim üçün ən böyük mükafat keçmiş köçkünlərin gözlərindəki sevincdir”

# Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışı olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev dövlət başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleksdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilərdə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə fəaliyyətlər davam etdirilir. Azərbaycan Respublikasının Ermənistanla dövlət sərhədinin Qubadlı və Laçın rayonları ərazisindən keçən hissəsinin mühafizəsini təmin edən Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin ərazisi 25 hektardır. Kompleksin döyüş texnikası parkında helikopterlər, “HAROP”, “Quzğun” və “Qırğı” zərbəendirici pilotsuz uçuş aparatları, tank əleyhinə dəzgahlı qumbaraatanlar və idarə olunan raketlər, 120 və 82 millimetrlik minaatanlar, zenit qurğuları və digər müasir silah sistemləri mövcuddur. Bununla yanaşı, hərbi hissənin istifadəsində döyüş texnikaları, yüksəkkeçidli nəqliyyat vasitələri, zirehli və avtomobil texnikası, tibb avtomobilləri var.

Qeyd edildi ki, hərbi hissə kompleksində qərargah binası, zabit-gizir və əsgər yataqxanaları, şəxsi heyət üçün lazımi şəraitlə təmin edilmiş iş otaqları, yeməkxana, yaşayış binaları, anbarlar və digər zəruri infrastruktur yaradılıb. Kompleksdə hərbi qulluqçuların peşəkar və döyüş qabiliyyətlərinin yüksəldilməsi, şəxsi heyətin hərbi biliklərinin və mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsi üçün zəruri xidməti və təlim-tədris bazası formalaşdırılıb. Tibb məntəqəsində hərbi qulluqçulara lazımi tibbi xidmətin göstərilməsi məqsədilə zəruri şərait var. Hərbi hissənin poliqonunda təlim məşğələlərinin təşkili və keçirilməsi, hərbi qulluqçuların döyüşə hazırlığının və fərdi məharətlərinin yüksəldilməsi, hərbi bölmələr arasında qarşılıqlı əlaqələrin işlənilməsi və birgə döyüş qabiliyyətlərinin artırılması üçün zəruri baza yaradılıb. İdman şəhərciyində futbol və voleybol meydançaları, həmçinin kazarmalarda müasir standartlara uyğun idman avadanlığı və alətləri ilə təchiz olunmuş məşq zalları təşkil edilib.

Kinoloji təlim şəhərciyində işğaldan azad olunmuş ərazilərdə minaların və partlamamış sursatların axtarışına və aşkarlanmasına cəlb olunan xidməti itlərin hazırlanması, vərdişlərinin təkmilləşdirilməsi, xidməti it təlimatçılarının peşəkar hazırlığının inkişaf etdirilməsi üçün imkanlar mövcuddur.

Hərbi hissə kompleksi istilik sistemi, daimi su və elektrik enerjisi ilə təmin edilib. Ərazidə əsaslı tikinti-abadlıq işləri həyata keçirilib, geniş yaşıllıq zolaqları salınıb.

Beləliklə, bu hərbi hissədə xidmətin yüksək səviyyədə aparılması, şəxsi heyətin döyüş qabiliyyətinin təkmilləşdirilməsi, peşəkar vərdişlərinin daha da inkişaf etdirilməsi üçün hərtərəfli şərait yaradılıb.














# "Mənim üçün ən böyük mükafat

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.



AZƏRTAC xəbər verir ki, rayon ictimaiyyətinin nümayəndələrini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

Salam, xoş gördük.

**Sakinlər:** Salam.

**Mehriban xanım ƏLİYEVA:** Salam, xoş gördük.

**Prezident İlham ƏLİYEV:** Mən bu gün Qubadlı rayon sakinlərini Qubadlıya dəvət etmişəm. Qubadlıya xoş gəlmisiniz. Bu gün Qubadlı rayonunun tarixində əlamətdar və tarixi bir gündür. Düz bir il bundan əvvəl müzəffər Azərbaycan Ordusu Qubadlını erməni işğalından azad etmişdir və bundan sonra 25 oktyabr bizim tariximizdə əbədi Zəfər günü kimi qeyd ediləcək. Bu münasibətlə sizi və bütün qubadlılıları, bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm.

25 oktyabr müharibənin gedişatında önəmli yer tutub. Çünki Qubadlı azad olunandan sonra Laçın istiqamətində yolumuz açıldı və bir neçə gündən sonra biz Laçının cənub hissəsində yerləşən kəndləri də azad etdik. Beləliklə, Laçın dəhlizini nəzarətə götürdük və artıq müharibənin taleyi həll edilmişdi. Düzdür, hələ Şuşa uğrunda şiddətli döyüşlər qabaqda idi, digər yaşayış məntəqələrimizin azad olunması ilə bağlı əməliyyat planları hazırlanırdı, ancaq artıq həm bütün dünya, həm də düşmən gördü ki, bizim qabağımızda heç bir qüvvə dayana bilməz. Biz Qubadlıdan sonra öz Zəfər yürüşümüzü, Zəfər missiyamızı şərəflə davam etdirdik və noyabrın 8-də Şuşada dövlət bayrağını ucaltdıq.

Hər bir yaşayış məntəqəsinin azad edilməsi tarixi hadisədir. İlk gündən başlayaraq müharibənin son gününə qədər Azərbaycan Silahlı Qüvvələri ancaq irəli gedirdi. Birinci gündə 4 kəndin azad edilməsi Azərbaycan xalqına çox böyük sevinc bəxş etdi. Uzun illərdən sonra bu Qələbə sevincini biz hamımız yaşadıq və o vaxt, əlbəttə, heç kim deyə bilməzdi müharibə nə qədər davam edəcək. Hətta noyabrın 8-də biz Şuşanı işğaldan azad edəndən sonra da mən şəxsən deyə bilməzdim müharibə nə qədər davam edəcək. Çünki bizim planlarımız işğalda olan bütün torpaqları azad etmək idi. Ancaq bilmirdik, düşmən nə vaxt təslim olacaq. Halbuki müharibə zamanı mən dəfələrlə öz çıxışlarımda, xalqa müraciətlərimdə və xarici jurnalistlərə müsahibələrdə deyirdim ki, əgər düşmən bizə bizim torpağımızdan çıxması ilə bağlı tarix versə, biz müharibəni dayandırmağa hazırıq və bu sözə də əməl etdik. Bildiyiniz kimi, noyabrın 9-da artıq Ermənistan tərəfi də öz məğlubiyyətini qəbul edib, etiraf edib, bu məğlubiyyətlə barışıb və noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Biz isə Zəfər gününü məhz 8 Noyabr tarixində qeyd edirik. Çünki 8 noyabrda erməni ordusu artıq təslim olmuşdu.

Bu gün bu şanlı Qələbədən danışarkən, ilk növbədə, əziz şəhidlərimizin xatirəsini yad etməliyik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Bizim şəhidlərimiz bizim qəlbimizdə əbədi yaşayacaq. Azərbaycan xalqı, indiki nəsil və gələcək nəsillər həmişə şəhidlərimizlə fəxr edəcək. Onlardan biri bizim əzizimiz Şükür Həmidovdur. Qubadlı rayonunun sakini böyük qəhrəmanlıq göstərmiş və doğma rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Şükür Həmidov bizim ən istedadlı və cəsarətli hərbçilərimizdən biri idi. O, Aprel döyüşlərində böyük qəhrəmanlıq göstərmişdi. Məhz bu qəhrəmanlığa görə mən ona Milli Qəhrəman adını verdim və özüm də şəxsən onu bu mükafatla təltif etdim. Ondan sonra məcburi köçkünlərlə bir görüş əsnasında onun atası Nəriman kişi ilə tanış oldum və bilmirdim ki, o, Şükürün atasıdır. Köçkünlər üçün salınmış bir şəhərciyin açılışında mənə dedi, mən də salamlarımı çatdırdım. Eşidəndə ki, bu günlərdə, bir neçə gün bundan əvvəl bir ili olub. Eşidəndə ki, Şükür həlak olub, bizim hamımızın ürəyi ağrıdı. Şükürün həlak olması bizim üçün böyük itkidir, onun ailəsi, onun yaxınları, atası üçün, hamımız üçün. Ona görə bu gün Qubadlının azad olunmasının birinci ildönümündə mən Şükürün əziz xatirəsini xüsusilə yad etmək istəyirəm. O, bütün hərbçilərimiz üçün, gənc nəsil üçün nümunədir, öz canını doğma diyar uğrunda fəda edib və şəhadət zirvəsinə ucalıb. Şəhidlərimizin xatirəsi əbədiləşdirilir və əbədiləşdiriləcəkdir.

Azad edilmiş bütün şəhər-kəndlərimizdə bərpa işləri başa çatandan sonra şəhidlərimizin adına küçələr qoyulacaq, onların adı məktəblərə veriləcək. Artıq bu proses başlamışdır. Ölkəmizin müxtəlif bölgələrində, o cümlədən bu bölgədə - Qarabağ-Zəngəzur bölgəsində bütün bərpa işləri başa çatandan, küçələr salınandan, məktəblər tikiləndən sonra bu da olacaq. Ancaq görüləsi işlər çoxdur. Sizin bir çoxunuz ilk dəfədir ki, Zəfərdən sonra Qubadlıya səfər edirsiniz və görürsünüz ki, düşmən hər tərəfi dağıdıb. Qubadlı şəhəri demək olar ki, yerləyeksan edilib, bir salamat bina yoxdur. Sadəcə olaraq, erməni hərbçiləri öz məqsədləri üçün bir neçə binadan istifadə etmişdir, onlar da bərbad vəziyyətdə idi. Mən bura keçən il dekabr ayında gələndə gördüm ki, onlar da bərbad vəziyyətdədir. Ona görə də biz Qubadlı rayonunun bütün kəndlərini, o cümlədən Qubadlı şəhərini yenidən quracağıq. Qubadlı şəhərinin Baş planı hazırlanır və yəqin ki, yaxın aylarda təqdim ediləcək, o cümlədən Qubadlı ictimaiyyətinə təqdim ediləcəkdir. Əlbəttə ki, bu Baş plan ən müasir normalara uyğun olacaq və Qubadlının təbiəti və tarixi keçmişi də memarlıqda nəzərə alınacaq. Amma eyni zamanda artıq bu gün Qubadlı rayonunun gələcək inkişafı ilə bağlı əməli-praktiki işlər aparılır. Bu gün biz yeni yarımstansiyanın açılışını qeyd etdik və bu, azad edilmiş torpaqlarda yeddinci yarımstansiyadır. Bu infrastruktur layihəsi Qubadlının 2050-ci ilə qədərki inkişaf dinamikasını nəzərə alır.

Mənə verilən məlumata görə, sovet vaxtında Qubadlı rayonunun ümumi istehlakı 12 meqavat idi. Ancaq bu yarımstansiya 40 meqavata hesablanıb və lazım olarsa, onun gücü iki dəfə artırıla bilər. Yəni biz Qubadlının gələcək inkişafını belə görürük. Sovet vaxtında, işğala qədər Qubadlı rayonunun əhalisi haradasa 28 min idi, indi mənə verilən məlumata görə əhali 40 minə çatıb.

Bütün kəndlər dağılıb, şəhər dağıdılıb, bir dənə də salamat kənd qalmayıb. Ona görə qubadlılıları buraya yerləşdirmək üçün, əlbəttə ki, çox böyük işlər görüləcək. Burada infrastruktur işləri birinci sıradadır. İndi siz də gələndə gördünüz ki, çox geniş, dördzolaqlı yol çəkilir. Heç vaxt bu ölçüdə yol olmamışdır. Dar bir yol idi Zəngilandan Qubadlıya, Laçına. İndi biz Zəngilandan Qubadlıya, Laçına dördzolaqlı yol çəkirik ki, bu yoldan insanlar rahat istifadə etsinlər. Eyni zamanda burada istehsal olunacaq məhsulları bazarlara vaxtlı-vaxtında, itkisiz çatdırmaq üçün imkan olsun.

Zəngilan Hava Limanı gələn il istifadəyə veriləcək. Zəngilan, Qubadlı faktiki olaraq bir zonadır, məsafə də çox böyük deyil. Ona görə qubadlılılar da bundan istifadə edəcəklər. Əlbəttə, Qubadlı rayonunun iqtisadi inkişaf planı ayrıca hazırlanmalıdır. Çünki infrastruktur layihələri təsdiq edilib. Sosial infrastrukturla bağlı Baş planda bütün məsələlər əhatə olunacaq - məktəblər, xəstəxanalar və digər sosial obyektlər, yaşayış binaları. Qubadlı şəhərində yaşayış binaları tikiləcək.

Sovet vaxtında daha çox fərdi evlər idi. Bir neçə beşmərtəbəli ev var idi. Bir-iki evin qalıqları qalıb. Ancaq Qubadlı şəhər kimi inkişaf etməlidir. Əlbəttə ki, düzgün planlaşdırma aparılarkən burada insanların rahat yaşaması üçün bütün şərait yaradılacaq. İqtisadi inkişafa gəldikdə, əlbəttə, rayon ictimaiyyəti də burada çox fəal iştirak etməlidir - həm bərpa işlərində, eyni zamanda Qubadlının düzgün inkişaf konsepsiyasının işlənməsində. Çünki rayon böyük potensiala malikdir, zəngin təbiəti, təbii sərvətləri var. Qubadlı rayonu ərazisindən iki böyük çay keçir, Bazarçay düz şəhərin ortasından keçir. Həkəri çayı nəinki Qubadlının, bütün Azərbaycanın, bizim böyük sərvətimizdir. Çünki biz bu çaylardan məhrum idik. Həkəridən də, Bazarçaydan da, Bəsitçaydan da, Tərtər çayından da məhrum idik. Ermənilər bizi məhrum etmişdi. Bu, böyük sərvətdir. Özü də indiki şəraitdə ki, su resursları dünyada gələcəkdə əsas yəni yaşayış üçün əsas resurs kimi artıq tanınır. Ona görə düzgün planlaşdırma aparılmalıdır, iqtisadi inkişaf, hansı sahələr inkişaf edəcək. Əlbəttə ki, biz bura yerli, xarici investorları cəlb edəcəyik. Yəni böyük planlarımız var, konseptual yanaşma mövcuddur. Ancaq bundan sonra dəqiq planlaşdırma aparılmalıdır və əminəm ki, Qubadlı sakinləri fəal iştirak edəcəklər.

Mən sizi bu gün dəvət etmişəm ki, bu tarixi günü birlikdə qeyd edək. Bu, doğrudan da, Azərbaycanın tarixində əbədi yaşayacaq bir gündür. 25 Oktyabr - Zəfər günü, Qubadlının azad olunması günüdür.

# keçmiş köçkünlərin gözlərindəki sevincdir”

## Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər

27 ildən sonra biz işğala son qoyduq, düşməni öz torpağımızdan qovduq. Müzəffər Azərbaycan Ordusu öz şərəfli missiyasını şərəflə yerinə yetirdi. İkinci Qarabağ müharibəsi bizim gücümüzü göstərdi və milli ruhumuzu göstərdi. Göstərdi ki, biz heç vaxt o vəziyyətlə barışmaq fikrində deyildik. Əgər qubadlılılar digər keçmiş köçkünlər kimi, hər il böyük ürəkağrısı ilə işğal günündə yığışırdılarsa, bundan sonra artıq o tarix tamamilə silindi, ancaq 25 oktyabrda hamımız bayram edəcəyik. Sizi bir daha təbrik edirəm!



Milli Məclisin İqtisadi siyasət və sənaye və sahibkarlıq komitəsinin sədri **Tahir MİRKİŞİLİ** dedi: Salam cənab Prezident, hörmətli Mehriban xanım. Bu gün Qubadlı torpağında Sizinlə bir yerdə olmaq bizim üçün böyük şərəfdir, böyük sevincdir. Bu, bizim üçün böyük bir tarixi gündür. Siz bu torpaqları əsl sahiblərinə qaytardınız. Siz Qubadlını qubadlılılara qaytardınız. Bu gün də qubadlılıları Qubadlıya dəvət etməklə bizi çoxdankı ən böyük arzumuza çatdırdınız. Cənab Prezident, bu günləri bizə yaşatdığınıza görə Sizə öz ailələrimiz və bütün qubadlılılar adından dərin minnətdarlığımızı bildirirəm.

Möhtərəm Prezident, 1992-ci ilin əvvəllərində Azərbaycanda olan hakimiyyətsizlik, dövlətsizlik, satqınlıq və xəyanət nəticəsində biz çox böyük fəlakətlər yaşadıq. Bizim başımıza böyük bəlalar gəldi. Biz böyük bir insan faciəsi yaşadıq, Azərbaycanı itirmək təhlükəsi ilə üzbəüz qaldıq. Məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə biz Azərbaycanı xilas etdik. Onun şəxsən, təkbaşına cəsarəti və dühası hesabına biz Vətənimizi itirməkdən xilas olduq. O, sağlam, möhkəm bir bünövrə qoydu və bugünkü güclü Azərbaycan dövləti Sizin rəhbərliyinizlə o bünövrənin üzərində durur.

Cənab Prezident, Siz və hörmətli Mehriban xanım yurd-yuvasından uzaq düşmüş insanların dərdini, acısını azaltmaq üçün hər şey etdiniz. Siz qaçqın şəhərciklərini ləğv etdiniz, Siz onlara ev tikdiniz, Siz onların övladlarını ali məktəblərdə oxutdunuz, Siz ad günlərinizi də bizlərlə qeyd etdiniz. Amma bütün bunlarla yanaşı, Siz bizim üçün ən böyük dəyər olan ümid və inam verdiniz. Bax o ümidin və inamın əsasında yeni bir nəsil yetişdi və Müzəffər Ali Baş Komandan İlham Əliyevin bir əmri ilə 44 gündə düşməni darmadağın etdi. Düz bir il bundan öncə bizim durduğumuz bu torpaqlardan düşmən qovulurdu. Cənab Prezident, biz buna, əslində, 44 günlük müharibə desək də, amma Siz 17 il döyüşdünüz. Bu müharibə bir ildir dayansa da, Siz hələ də döyüşürsünüz. Əslində, mən bunu arzu etməzdim, amma hadisələr göstərir ki, biz Sizin rəhbərliyinizlə hələ çox döyüşməli olacağıq. Siz Qələbənin simvolusunuz, mən əminəm ki, biz hələ çox qələbələr qazanacağıq.

Cənab Prezident, bir iqtisadçı kimi, bir məsələni də qeyd etməyə bilməzdim, Sizin rəhbərliyinizlə bizim əldə etdiyimiz ən böyük uğurlarımızdan biri bizim iqtisadi müstəqilliyimizdir. Məhz Sizin verdiyiniz tapşırıqlar, həyata keçirilən iqtisadi islahatlar, o nəhəng, böyük iqtisadi layihələr bizə böyük iqtisadi imkanlar yaratdı. Bax bu imkanlar hesabına Siz bir tərəfdən xalqın, insanların, bizim hamımızın sosial yaşayışı ilə bağlı çox böyük işlər gördünüz. Amma digər bir tərəfdən, biz ordu yaratdıq, silah aldıq, döyüşdük, qalib gəldik. Biz o qalibiyyəti saxladıq və bu gün yol boyunca gördük ki, çox böyük quruculuq işləri gedir. Ona görə əminik ki, bu iqtisadi imkanlarımız bundan sonra da artacaqdır. Biz Sizin rəhbərliyinizlə hələ çox uğurlara imza atacağıq. İnşallah, Qubadlı tikilsin, bizim hamımızın burada evlərimiz olsun. Tanrı Sizi və ailənizi qorusun. Sağ olun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun, Qubadlının və digər azad edilmiş rayonların iqtisadi inkişafı ilə bağlı bir daha demək istəyirəm ki, bizim çox dəqiq planlarımız olmalıdır. Biz çox yaxşı təcrübə toplamışıq, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları uğurla icra edilir. Artıq bir neçə proqram icra edilmişdir və o təcrübədən faydalanaraq bu bölgədə, əlbəttə, çox düzgün planlaşdırma aparılmalıdır. Bir daha demək istəyirəm ki, infrastruktur layihələri ilə bağlı, evlərin tikintisi ilə bağlı, kəndlərin bərpası ilə bağlı artıq ilkin təkliflər var. Əsas budur ki, buraya qayıdacaq insanlar yaxşı yaşasınlar, yəni onların rifahı yüksək olsun. Bunun üçün də, əlbəttə ki, şərait yaradılacaq, amma onların məşğul olacağı sahələr düzgün müəyyən edilməlidir. Bu məqsədlərə çatmaq üçün atılacaq addımlar düzgün qoyulmalıdır. Hökumətə tapşırıq verildi, müxtəlif nazirliklər fəaliyyət göstərir və əminəm ki, Milli Məclis də bu işlərə öz töhfəsini verəcək. Belə səfalı torpaqlarda ancaq yaxşı dolanışıq olmalıdır.

Bir daha onu deməliyəm ki, bax bu azad edilmiş bölgələrə bilirsiniz, mən tez-tez gedirəm, səfərlər edirəm və ermənilərin yaşadıqları bəzi yerləri də görürəm. Deyə bilərəm ki, orada bir dənə də yeni bina yoxdur. İndi yol boyunca - Bakıdan çıxıb Qubadlıya, istər Ağdama, istər Füzuliyə, istənilən istiqamətə gedən insan yol boyunca yeni evlər görür. Biz kəndləri keçərkən görürük ki, bilmirik evlər bəlkə on il, iyirmi il əvvəl, yəni bir çox evlər müstəqillik dövründə inşa edilibdir. O vaxt işğal altında olan ərazilərdə bir dənə də bina tikilməyib, bir dənə də. İndi bu Qubadlıda, guya, onlar məskunlaşma aparmaq istəyirdilər. Xanlıq qəsəbəsində bir erməni fondu evlər tikdirmişdi. İndi adam gedib o evlərə baxanda görür ki, bu evlərdə heç bir şərait yoxdur. İndi oranı bir az düzəltdik, bizim hərbçilər orada yerləşir. Yəni onlar bu torpaqlara yad bir torpaq kimi baxırdılar. Sadəcə olaraq, bu torpaqları istismar edib, ağacları qırıb, bizim təbii sərvətlərimizi talayıb, çaylarımızı zəhərləyib öz mənfur xislətlərini göstərirdilər. Amma bu gün bütün dünya bunu görür, bütün dünya. Çünki bunu gizlətmək mümkün deyil. Gələn hər bir insan bu dağıntıları görür və erməni faşizminin bax bu sübutlarını görür. Amma biz qurucu xalqıq və Qubadlını yenidən quracağıq.

Şəhid Milli Qəhrəman Şükür Həmidovun atası **Nəriman HƏMİDOV**: Cənab Prezident, özümü xoşbəxt hiss edirəm ki, Sizinlə ikinci səfərdir şəxsən görüşürəm. Mən Allah-təaladan razıyam ki, Sizi Azərbaycana bəxş edib. Sizin kimi hərtərəfli sərkərdəni, şəxsiyyəti bizim Azərbaycana bəxş edib. Bizim xalqımız dövlət ətrafında yumruq kimi birləşdi və sözünü dedi. Bu hamısı Sizin rəhbərliyinizlə olmuş hadisədir, bunu hamı bilir. Siz polad sinəli, genişürəkli, əvəzsiz bir sərkərdəsiniz. Sizin keçdiyiniz yol, əldə etdiyiniz Qələbə mənim bu dediklərimə möhür vurur, təsdiq edir. Mənim uzun müddətdir qəlbimdə gəzdirdiyim bir fikrim var, onu çatdıracağam. Mən bütün qədirbilən xalqımızdan xahiş edirəm, mənim fikrimi təsdiq etsin, alqışlasın. Bizim qanunverici orqanımız olan Milli



Məclisdən xahiş edirəm ki, Müzəffər Ali Komandan, Prezidentimiz cənab İlham Əliyevə “Azərbaycanın daimi Prezidenti” adı verilsin. Xahiş edirəm ki, xalqımız da, Milli Məclis də bunu qəbul etsin.

**Prezident İlham ƏLİYEV:** Mən veto qoyacağam ona, mənim belə hüququm var. Çox sağ olun, təşəkkür edirəm, sağ olun. Bu səmimi sözlərə görə minnətdaram. Ancaq mənim üçün ən böyük mükafat bax sizin burada olmağınızdır, keçmiş köçkünlərin gözlərindəki sevincdir, qürurdur. Budur mənim üçün ən böyük mükafat. Mən demişdim, məcburi köçkünlərlə mən dəfələrlə görüşmüşdüm. İndi təsəvvür edin, 100-dən çox qəsəbə salındı, yəni ev yox, məcburi köçkünlər üçün qəsəbə. Mən hər bir açılışda olmuşam, hər bir açılışda. Köçkünlərlə görüşlər zamanı, - mən onu artıq bir dəfə demişəm, bir daha demək istəyirəm, - görürdüm ki, ümidlər azalır, ümidlər tükənir. Bu da təbiidir. Çünki artıq 30 ilə yaxın vaxt keçir, məsələ də həll olunmur. Artıq hər kəs başa düşürdü ki, Ermənistan bu məsələni danışıqlar yolu ilə həll etmək istəmir. Bu, məni çox incidirdi, çox üzürdü. O görüşlər məndə bir daha o inamı gücləndirirdi ki, biz nəyin bahasına olursa-olsun torpağımıza qayıtmalıyıq. Artıq o baxışlar yoxdur, o kədərli anlar yoxdur, o xatirələr qalır arxada. Artıq keçmiş məcburi köçkünlər ümidlə yaşayırlar, qürurla yaşayırlar. Mənim üçün ən böyük mükafat budur və bundan sonra ən böyük vəzifə bu torpaqları yenidən qurmaqdır, yenidən bərpa etməkdir.

Müharibə başa çatıb və düzdür, bizi hələ döyüşməyə məcbur edirlər, biz də hazırıq. İstənilən formada, necə deyərlər, meydançada - istər siyasi meydanda, istər hərbi meydanda. Biz artıq göstərmişik ki, heç kimin qabağında baş əyən xalq deyilik. Ancaq bununla yanaşı, bizim qarşımızda çox böyük quruculuq işləri dayanır. Bu da müharibədə əldə edilmiş Qələbəyə uyğun səviyyədə aparılmalıdır. Ümumiyyətlə, bu tarixi Zəfərdən sonra ölkəmizin yeniləşməsi, müasirləşməsi, aparılan islahatlar, xoşagəlməz hallarla mübarizə, əlbəttə, tam yeni müstəviyə çıxmalıdır. Çünki bu Qələbə bütün dünyaya bizim böyük xalq olduğumuzu göstərdi, eyni zamanda bizi, sözün yaxşı mənasında, məcbur edir ki, biz qabağa ancaq düz yolla gedək. Bax sizinlə bərabər, bütün Azərbaycan ictimaiyyəti ilə bərabər biz bu yolu gedəcəyik. İndi mən hansı statusda bu yolu gedəcəyəm, o, ikinci məsələdir. Əsas odur ki, ömrümün sonuna qədər mən bu yolla gedəcəyəm, İnşallah, sizinlə bərabər.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Siz deyirsiniz ikinci dəfə, üçüncü dəfə biz görüşürük. Mən sizi o vaxt Hərbi Qənimətlər Parkının açılışına da dəvət etmişdim.

**Nəriman HƏMİDOV:** Bəli, yadımdadır. Üçüncü dəfədir. Çox sağ olun, çox var olun. Sizinlə fəxr edirəm, həyat sübut etdi.

Bakı Dövlət Universitetinin kafedra müdiri, professor **Abbas ABBASOV:** Sizin bütün fəaliyyətiniz göz qabağındadır - hərbi meydanda da, diplomatiyada da, siyasətdə də. Bütün cəbhələrdə Siz sinə gərdiniz. Sizi bu xalqa Tanrı göndərib, İlahi pay göndərib.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

Əməkdar müəllim **Şamama HƏSƏNOVA:** Xalqının sevimli, dağ vüqarlı, qartal görünüşlü əziz Prezidentimiz. Bu gün biz babalarımızdan bizə əmanət qalan bu torpaqda olmağımızdan çox böyük qürur hissi keçiririk. Bu qürur hissini, bu sevinci, bu fəxarəti bizə yaşatdığınız üçün Sizə qubadlılıların təşəkkürünü çatdırıram. Mən bu gün çox xoşbəxtəm ki, qubadlılıların salamlarını Sizə çatdırmaq şərəfinə nail olmuşam. Cənab Prezident, biz hamımız qubadlılılar olaraq bir nəfər kimi Sizin arxanızdayıq, Sizin yanınızdayıq və bütün quruculuq işlərində - necə ki, o 44 günlük müharibədə - yenə də Sizin bütün tapşırıqlarınızın, bütün sərəncamlarınızın, bütün çıxışlarınızdan irəli gələn müddəaların həyata keçirilməsi bu gün Qubadlımızda prioritet məsələdir. Bu gün Qubadlıda hamı bununla fəxr edir. Arzu edirəm ki, bu quruculuq işlərində də biz həmişə Sizin sağ əliniz olaq, Sizin, Mehriban xanımın yanında olaq. Allah Sizə elə qol-qanad versin ki, bu quruculuq işlərini, başladığınız bax bu işi Allahın köməyi ilə axıra çatdırasınız. Mehriban xanım, xanımlar xanımı, birinci xanımımız həmişə Sizin yanınızda olsun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Təşəkkür edirəm. Sağ olun.

**Şamama HƏSƏNOVA:** Bu gün Müzəffər Ali Baş Komandan kimi, qalib Ordunun qalib sərkərdəsi kimi, cənab Prezident, Sizi təbrik edirik. İnanın ki, hər bir insanın qəlbində, hər bir qubadlılının qəlbində, o cümlədən bütün xalqımızın qəlbində elə bir abidə ucaltmısınız ki, o heç vaxt oradan, öz yerindən ayrı ola bilməz.

Sizi, ailənizi, belə xoş gündə bir daha təbrik edirəm. Qoy Allah bizi həmişə belə xoş günlərdə görüşdürsün, qubadlılılarla Sizi belə xoş günlərdə, əlamətdar günlərdə görüşdürsün.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, təşəkkürlər, çox sağ olun. Elə də olacaq bundan sonra. Sağ olun.

Əməkdar müəllim **Ədalət ƏSƏDOV**:

*Ey ulu məmləkətin Ali Baş Komandanı,*
*Şücaətin, təpərin dünyaya dastan oldu.*
*Sən bu xalqın qəlbində elə heykəl ucaltdın,*
*Tarix yaddan çıxarmaz, tarixə dastan oldun.*

Bu gün cənab Prezident biz qubadlılıları Qubadlıya qonaq dəvət edib. Ulu Yaradandan diləyim budur ki, biz qubadlılılar da dəyərli Prezidentimizi, böyük insanımızı, böyük şəxsiyyətimizi - İlham Əliyevi Qubadlıya qonaq dəvət edək. Var olun, Allah Sizi qorusun!

**Prezident İlham ƏLİYEV:** Sağ olun, təşəkkür edirəm. Elə də olacaq. Yaxın gələcəkdə.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri **Hicran HÜSEYNOVA:** Cənab Prezident, bizim bu ulu baba torpağımıza bizi qaytardınız. Bu, bizim üçün ən böyük xoşbəxtlikdir. Sizin də, Mehriban xanımın da, bütün bu 44 gündə danışıqlarınızda, Sizin çıxışlarınızda hiss edirdik ki, Siz, doğrudan da, nə qədər böyük həyəcan keçirirdiniz. Amma birinci gündən axırıncı günə qədər biz Sizə arxalanırdıq, Sizə inanırdıq. Bütün xalq Sizin ətrafınızda birləşib. Siz də xalqdan güc alaraq bizi Qələbəyə çatdırdınız. Ona görə Sizə cansağlığı, uzun ömür arzulayırıq, biz də həmişə arxanızdayıq.

**Şamama HƏSƏNOVA:** Ölümün gözünə dik baxan o şəhidlərimiz, cənab Prezident, məhz Sizdən güc alırdılar, Sizdən ilham alırdılar.

**Prezident İlham ƏLİYEV:** Bilirsiniz, dünyada indi, tarixdə bir çox müharibələr olub. Ancaq inanmıram ki, belə bir müharibə olsun ki, orada iştirak edən orduda bir nəfər də fərari olmasın.

**Şamama HƏSƏNOVA:** Bəli, bəli, bu, Sizin sayənizdədir.

**Prezident İlham ƏLİYEV:** Çünki biz İkinci Dünya müharibəsinin tarixini yaxşı bilirik. O vaxt sovet ordusunda nə qədər fərari olmuşdur, nə qədər satqın olmuşdur. Hətta alman faşistləri satqınlardan ibarət ordu yaratmışdılar. Ancaq bizdə bir dənə də olsun fərari olmamışdır.

**Şamama HƏSƏNOVA:** Sizin sayənizdə. Sizə güvənərək ölümə getdilər.

**Prezident İlham ƏLİYEV:** Ölümə gedirdilər, ölümə gedirdilər bu torpaq uğrunda. Bax budur xalqımızın böyüklüyü.

❖ ❖ ❖

Xatirə şəkilləri çəkdirildi.

❖ ❖ ❖

Birinci xanım **Mehriban ƏLİYEVA** sakinlərlə söhbət etdi. Ata-baba yurdlarına geri dönən sakinlər torpaqlarımızın işğaldan azad olunmasına görə minnətdarlıqlarını bildirdilər. Qubadlı sakini öz hazırladığı əl işindən ibarət kəlağayını birinci xanıma təqdim etdi.

Qubadlılılar Azərbaycan xalçaçılıq sənətinin dünyada təbliğində Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın əməyini xüsusi vurğuladılar. Sakinlər işğaldan azad olunan torpaqlarda xalçaçılıq müəssisələrinin yaradılması ilə bağlı təkliflər səsləndirdilər. Birinci xanım Mehriban Əliyeva təklifləri dəstəklədiyini bildirdi.

Sonra Milli Qəhrəman Şükür Həmidovun atası Nəriman Həmidov birinci xanıma Azərbaycan naminə gördüyü işlərə və Vətən müharibəsi qazilərinə göstərdiyi qayğıya görə minnətdarlığını ifadə etdi.

Ardı 6-cı səh.

# “Mənim üçün ən böyük mükafat keçmiş köçkünlərin gözlərindəki sevincdir”

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər

*Əvvəli 5-ci səh.*



Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ictimaiyyətin nümayəndələri Qubadlı şəhərinin ərazisini gəzdilər.

**Prezident İlham ƏLİYEV:** Harada oxuyursan?

**Tələbə oğlan:** Mən məktəbdə respublika birincisi oldum. Bakı Ali Neft Məktəbində oxuyuram.

**Prezident İlham ƏLİYEV:** Neft məktəbində? Neçənci kursda?

**Tələbə oğlan:** Birinci kurs.

**Prezident İlham ƏLİYEV:** Birinci kurs. Hə, çox yaxşı.

**Tələbə qız:** Mən də Bakı Ali Neft Məktəbində oxuyuram. Tələbələrimizin Sizə salamı var.

**Prezident İlham ƏLİYEV:** Çox sağ ol, məndən də tələbələrə salam söylə. Çox sağ ol.

**Qadın sakin:** Mən çox təsirlənirəm. Cənab Prezident, müharibədən danışanda məni ağlamaq tutur. Azərbaycan tarixinin ən şərəfli səhifəsidir.

**Prezident İlham ƏLİYEV:** Bəli, elədir. Razıyam, çox sağ olun.

**Gənc idmançı:** Cənab Prezident, gənc olimpiyaçı olaraq mən də gənc idmançılar adından Sizə təşəkkürümü bildirirəm.

**Prezident İlham ƏLİYEV:** Bilirəm, sən yaxşı vuruşmusan. Amma Niyaməddin kimi çempion olmalısan.

**Gənc idmançı:** Sağ olun. İnşallah, Sizə söz verirəm.

**Prezident İlham ƏLİYEV:** Deyirəm, sənin kimi çempion olmalıdır. Hə?

**Gənc idmançı:** Müəllimimizdir. Niyaməddin müəllimdən həmişə böyük örnək almışıq.

**Prezident İlham ƏLİYEV:** Sən neçənci ildənsən?

**Gənc idmançı:** 1996-cı ildən.

**Prezident İlham ƏLİYEV:** 1996-cı ildən. Görməmisən?

**Gənc idmançı:** Görməmişəm. Böyük şərəf oldu.

**Prezident İlham ƏLİYEV:** Valideynlərin burada yaşayıb?

**Gənc idmançı:** Bəli, valideynlərim burada olubdur, Gürcülü kəndində. Böyük şərəfdir Sizinlə buranı ziyarət etmək.

**Niyaməddin PAŞAYEV:** Cənab Prezident, mən də öz adımdan, öz ailəm adından Sizə dərin təşəkkürümü bildirirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ ol.

**Niyaməddin PAŞAYEV:** Mən 13 yaşıma qədər böyüdüyüm bu Qubadlı.

**Prezident İlham ƏLİYEV:** Sən burada yaşamısan?

**Niyaməddin PAŞAYEV:** Bəli, Qubadlı rayonunun Muğanlı kəndində doğulmuşam. İnşallah, arzu edirəm ki - necə ki, bu günə qədər Azərbaycanda böyük idman yarışları təşkil olunub, - bu işğal olunmuş şəhərlərimiz də bərpa olunandan sonra bizə Avropa Oyunları kimi, İslam Oyunları kimi, Avropa, dünya çempionatlarını keçirmək qismət olsun.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə. Mütləq. Burada indi mütləq yaxşı idman qurğuları tikiləcək. Siz də gəlib burada öz təcrübənizi bölüşəcəksiniz. Mütləq.

**Gənc idmançı:** İnşallah, bundan sonra bütün qələbələrimizi Sizə həsr edəcəyik.

**Prezident İlham ƏLİYEV:** Çox sağ ol. Sənin çox güclü potensialın var, mən izləyirdim. Dünya çempionatının bürünc mükafatçısısan?

**Gənc idmançı:** Bəli.

**Prezident İlham ƏLİYEV:** Yəni dünya, Olimpiya çempionu ola bilər.

**Gənc idmançı:** İnşallah. Sizə söz veririk, Parisdə sübut edəcəyik, Allahın izni ilə. Çox sağ olun.

**Həkim:** Cənab Prezident, mən 15 il burada uşaq həkimi işləmişəm.

**Prezident İlham ƏLİYEV:** Qubadlının rayon mərkəzində?

**Həkim:** Rayon mərkəzində. Müalicə etdiyimiz bu uşaqlar Sizin sayənizdə bu torpaqlarımızı işğaldan azad etdilər. Bu torpaqlara, bu evlərin hər birinə indi baxırıq, tanımırıq.

**Prezident İlham ƏLİYEV:** Hamısını dağıdıblar. Sonra da söküblər. Əvvəl, müharibədən sonra dağıdıblar. Sonra da söküblər, daşları da aparıblar, atıblar ora-bura. Hamısı yenidən qurulacaq. İndi göstəriş verilib. İndi Baş plan hazırlanır. Yəqin ki, 2-3 aya hazır olacaq. Ondan sonra ictimaiyyət də tanış olacaq. Baxarsınız, siz də öz təkliflərinizi verərsiniz. Əlbəttə, daha böyük şəhər nəzərdə tutulur. İlkin belə variant indi mənə məruzə edildi. Ola bilər, 10-15 min əhalisi olan. Çünki işğala qədər rayon mərkəzinin 5 min əhalisi olub.

Əlbəttə, kəndlərin də bərpası mütləq olacaq, İnşallah. İndi bu əsas yol çəkilir, Eyvazlıya da bir yol çəkilir. Yəqin ki, eşitmisiniz?

**Sakinlər:** Bəli, ən strateji yoldur.

**Prezident İlham ƏLİYEV:** Bəli, bəli. Həmin o Gorus-Qafan yolu ki, indi bizim ərazimizdən keçir.

**Sakin:** Cənab Prezident, Siz Ali Baş Komandan kimi bu kəndlərimizi bizdən yaxşı tanıyırsınız.

**Prezident İlham ƏLİYEV:** Mən bunu əzbər bilirəm. Çünki müharibə dövründə bütün bu göstərişlər verilirdi, hansı kənd nə vaxt, necə götürülməlidir.

**Sakin:** Hər gün xalq Sizdən elan gözləyirdi. Vərdiş etmişdik.

**Prezident İlham ƏLİYEV:** Bəzən bir-iki gün ara olanda narahat olurdular ki, görəsən, nə oldu?

**Sakin:** Gorus rayonunun dörd azərbaycanlı kəndi var idi - Şurnuxu, Ağbulaq, Çayzəmi, bir də Qurdqalaq. Kəpəz dağı buradan görünürdü. Kəpəz dağının arxasında ermənilər ad qoymuşdu Ağbannıdır. Bunlar hamısı Azərbaycan kəndləri idi. Qədim qəbiristanlıqlar qalıb, yerlər hamısı qalıb. Bizim Seytas kəndi üç dəfə dağıdılıb, bir fəsildə üç dəfə yandırılıb. 1990-cı ilin yanvar ayında mənim atamın evi yandırıldı.

**Sakin:** Cənab Prezident, sağ tərəfdə Böyük Vətən müharibəsi abidəsi, Ana abidəsi var idi. Hamısının adı yazılmışdı orada.

**Prezident İlham ƏLİYEV:** Onu da söküblər.

**Sakin:** O yuxarıdakı da rayonun dağüstü pavilyonu olub. Pilləkənləri də söküb aparıblar.

**Digər sakin:** Cənab Prezident, mənim xatirimdədir, səhv eləmirəmsə, 1997-ci ildə Ulu Öndər Akademik Opera və Balet Teatrına gəlmişdi - “Arşın mal alan” tamaşasına. Pediatrların yığıncağı idi, qonağı və dostu, qardaşı İhsan Doğramacı ilə.

Onda pərdə arxasına keçdim, mən onda Vəli obrazında idim. Məni böyük sənətkarımız Lütfəli Abdullayevə bənzədirdilər. Səhnə arxasına gəldi, öz təəssüratlarını hamımızla bölüşdü. Çox razı qalmışdı.

**Prezident İlham ƏLİYEV:** Bəli, o, tamaşalara tez-tez gəlirdi.

**Sakin:** Allah qəni-qəni rəhmət eləsin. O, incəsənət işçiləri üçün, aktyorlar üçün çox böyük işlər görüb və Siz də onu davam etdirirsiniz. Hamımızın ürəyindəndir, hamımız Sizin duaçınızıq.





**Prezident İlham ƏLİYEV:** Sağ olun, çox sağ olun.

**Sakin:** Cənab Prezident, bir məsələni deyim. Bu çay buradan keçirdi. Ermənilər istəyirdilər burada bulvar düzəltsinlər. Oranı qaldırıblar ki, düzəltsinlər, yarımçıq qaldı. Biz gəldik, ordumuz gəldi.

**Prezident İlham ƏLİYEV:** Buranı onlar genişləndiriblər?

**Sakin:** Bəli, genişləndirmək istəyiblər ki, bir azca o tərəfə getsin. Desinlər bulvardır, Bakıdakı kimi. Amma planları gözlərində qaldı.

**Prezident İlham ƏLİYEV:** Bəli, onu biz edərik. Burada çay boyunca belə gəzinti yerləri mütləq olmalıdır.

**Sakin:** Çox gözəl olardı. Dar idi də belə.

**Prezident İlham ƏLİYEV:** Onlar genişləndiriblər. Amma burada bir iş görməyiblər.

**Sakin:** Yox, onlar belədir də. Ancaq uçurub dağıtmaqla məşğul idilər. Ümidləri yox idi, ona görə.

**Prezident İlham ƏLİYEV:** Bəli, əlbəttə. Bilirdilər ki, biz qayıdacağıq. O Bəsitçay qoruğunda ağacların böyük hissəsini kəsiblər, ancaq kötüklər qalıb və yandırıblar. Biz keçən dəfə Zəngilanda olanda Bəsitçaya getmişdik. Dağıdıblar, kəsiblər, misli görünməmiş vandallıq.

Kəlbəcər şəhəri tam dağılıb. Halbuki orada bəzi yerlərdə yaşayırdılar. Ora da tamamilə yerlə bir idi. Eybi yoxdur, hamısını yenidən quracağıq, daha gözəl olacaq. Mən həmişə o qəsəbələrin açılışlarında keçmiş köçkünlərlə görüşlər zamanı deyirdim ki, bu, müvəqqəti yaşayış yerinizdir. Torpaqlar azad olunandan sonra daha gözəl evlər, binalar tikəcəyik. İndi o gün yaxınlaşır.

**Sakinlər:** Çox sağ olun.

**Vətən Müharibəsi Qəhrəmanı:** Mən ehtiyatda olan bir əsgər kimi bir çox tədbirlərdə iştirak eləmişəm. Orada qeyd edirdim, cənab Ali Baş Komandanımıza dərin minnətdarlığımı bildirirəm ki, məni 19 yaşımda “Vətən Müharibəsi Qəhrəmanı” adı ilə təltif edib. Şükür Allaha, bu gün öz doğma torpağımızda Sizinləyik. Sizə təşəkkürümü bildirirəm ki, məni və döyüş yoldaşlarımı yüksək fəxri adlarla qiymətləndirmisiniz. Çox təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Çox sağ ol, mən sənə təşəkkür edirəm, sənin simanda bizim bütün qəhrəman övladlarımıza. Onlar sinəsini qabağa verib düşməni torpağımızdan qovublar. Bax belə igidlər hesabına biz bu gün burada dayanmışıq.

**Vətən Müharibəsi Qəhrəmanı:** Hər an hər bir əmrinizi icra etməyə hazırıq.

**Prezident İlham ƏLİYEV:** Sağ ol. Bu medallar hansı şəhərlər uğrundadır?

**Vətən Müharibəsi Qəhrəmanı:** Cəbrayıl, Füzuli.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Sağ olun.

# "Allah Azərbaycan hərbçilərini qorusun!"





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində Qubadlı rayonundan fotolar paylaşıb. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Allah Azərbaycan hərbçilərini qorusun!"

# Azərbaycan və Bolqarıstan arasında münasibətlər yüksələn xətlə inkişaf edir




Oktyabrın 25-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Bolqarıstanın Ayrı-seçkiliyə qarşı müdafiə üzrə Komissiyasının sədri Ana Cumaliyevanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Sahibə Qafarova qeyd edib ki, bu görüş ölkəmiz üçün tarixi əhəmiyyətli bir dövrə - Vətən müharibəsində qazanılan möhtəşəm Qələbənin ildönümü ərəfəsinə təsadüf edir. 2020-ci ildə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalına son qoyaraq öz ərazi bütövlüyünü bərpa edib. Bununla da Azərbaycan BMT Təhlükəsizlik Şurasının uzun illər ərzində kağız üzərində qalan 4 qətnaməsini özü həyata keçirib.

Parlamentin Sədri qeyd edib ki, istər ötən il sentyabrın 27-dək, istərsə də döyüş əməliyyatlarının davam etdiyi dövrdə Ermənistan bir çox hərbi təxribatlar törədib. O, xüsusilə Ermənistanın Azərbaycanın iri şəhərlərini, rayon mərkəzlərini və kəndləri artilleriya atəşinə, raket hücumlarına məruz qoduğunu, mülki əhalini və mülki obyektləri hədəfə aldığını bildirib. Əlavə edib ki, bu hücumlar nəticəsində onlarca dinc sakin, o cümlədən qadınlar və uşaqlar həlak olublar. Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Ermənistan bu gün də öz təxribatçı əməllərindən əl çəkmir və sülhün bərpa olunmasına, quruculuq, abadlıq işlərinə maneçilik törədir. 10 noyabr Bəyanatından bir ilə yaxın vaxt ötməsinə baxmayaraq, Ermənistan hələ də minalanmış ərazilərin xəritələrini təqdim etməyib. Bu, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır.

Münaqişənin artıq tarixə qovuşduğunu söyləyən Sahibə Qafarova qeyd edib ki, hazırda Azərbaycan gələcəyə hədəflənmiş layihələr reallaşdırır, işğaldan azad olunmuş ərazilərimizdə sürətli bərpa və quruculuq işləri aparılır. Milli Məclisin Sədri xatırladıb ki, cari ilin iyulunda Prezident İlham Əliyevin imzaladığı fərmana əsasən, Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü müəyyənləşdirilib. Bu fərmana əsasən, iki yeni iqtisadi rayon - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb.

Bolqarıstan nümayəndə heyətinin işğaldan azad olunmuş Ağdam şəhərinə səfər edəcəklərini bildirən Sahibə Qafarova deyib ki, onlar həmin ərazilərdə Ermənistan tərəfindən törədilən vəhşilikləri öz gözləri ilə görəcəklər. Onun sözlərinə görə, Ermənistan 30 il ərzində işğal altında saxladığı Azərbaycan torpaqlarında şəhərləri, kəndləri, xalqımıza məxsus tarixi, mədəni abidələri, məscidləri vəhşicəsinə dağıdıb.

Azərbaycan ilə Bolqarıstan arasında əlaqələr haqqında da danışan Milli Məclisin Sədri vurğulayıb ki, bu münasibətlər yüksələn xətlə inkişaf edir. Ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi qarşılıqlı maraqlara uyğundur və hər iki tərəf bu istiqamətdə iradə nümayiş etdirir. Azərbaycanla Bolqarıstan arasında münasibətlər zəngin müqavilə-hüquq bazasına söykənir.

Sahibə Qafarova Azərbaycan və Bolqarıstanın qanunverici orqanları arasında da əməkdaşlıq əlaqələrinin inkişaf etdiyini vurğulayaraq, hər iki ölkənin parlamentlərində dostluq qruplarının fəaliyyətini təqdir edib.

Bolqarıstanın Ayrı-seçkiliyə qarşı müdafiə üzrə Komissiyasının sədri Ana Cumaliyeva çıxış edərək ölkələrimiz arasında münasibətlərin inkişaf etdiyini bildirərək, regionda sülh və təhlükəsizliyin təmin olunmasının əhəmiyyətini qeyd edib. O, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili ilə əməkdaşlıq münasibətləri haqqında məlumat verib.

Görüşdə Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Milli Məclisin Aparat rəhbəri Səfa Mirzəyev, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Bolqarıstanın Ayrı-seçkiliyə qarşı müdafiə üzrə Komissiyası sədrinin müavini Baki Hüseynov və digər rəsmi şəxslər iştirak ediblər.

# Azərbaycanın müdafiə nazirinin NATO-nun nümayəndəsi ilə görüşü olub



Oktyabrın 25-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan NATO-nun Beynəlxalq Hərbi Qərargahın Kooperativ Təhlükəsizlik İdarəsinin rəisi general-mayor Françesko Diellanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Zakir Həsənov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun Qələbəsi ilə başa çatan Vətən müharibəsindən sonra azad edilən ərazilərdə ordumuz tərəfindən görülən işlər və dövlət sərhədində hazırkı vəziyyətlə bağlı qonağa ətraflı məlumat verib.

General-mayor F.Diella NATO-nun Azərbaycan ilə əməkdaşlığının cari vəziyyətindən, bu sahədə əldə olunan müsbət nəticələrdən məmnunluğunu bildirib, qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

# Azərbaycanın müdafiə naziri Türkiyə Milli Müdafiə Universitetinin rəhbər heyəti ilə görüşüb



Oktyabrın 25-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikası Milli Müdafiə Universitetinin rektoru professor Erhan Afyoncunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Vətən müharibəsində qardaş Türkiyənin göstərdiyi mənəvi dəstəyə görə minnətdarlığını bildirən Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin göstərişinə uyğun olaraq, Türkiyə Silahlı Qüvvələri modelinin Azərbaycan Ordusunda tətbiqi, bu məqsədlə də qardaş ölkənin Milli Müdafiə Universiteti ilə hərbi təhsil sahəsində təcrübə mübadiləsinin aparılmasının zəruriliyini qeyd edib.

Türkiyə ilə hərbi müttəfiqlik çərçivəsində digər sahələrdə olduğu kimi, hərbi təhsil sahəsində də əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb. Vətən müharibəsində Qələbəyə görə təbriklərini çatdıran professor E.Afyoncu hərbi təhsil sahəsində təcrübə mübadiləsinin hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasına müsbət təsirini qeyd edərək, bu istiqamətdə görülən işlərin bundan sonra da davam etdiriləcəyini bildirib.

Görüşdə hərbi-təhsil və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Şəhid hərbçilərimizin təltif olunduğu medallar ailə üzvlərinə təqdim edilib

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev 4 saylı Bakı DOST Mərkəzində fəaliyyət göstərən vahid əlaqələndirmə mərkəzində olub.



Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, nazir mərkəzdə şəhid ailələri və qazilərə göstərilən xidmətlərlə tanış olub. Xidmət pəncərələri qarşısında aidiyyəti qurum nümayəndələri və xidmətlərdən yararlanan şəxslərlə söhbət edib, onların göstərilən xidmətlər barədə fikirlərini öyrənib.

Sonra S.Babayev mərkəzə müraciət edən bir qrup şəhid ailəsi üzvü və qazi ilə görüş keçirib. Bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfərlə başa çatdırdığı Vətən müharibəsindən ötən bir ildə şəhidlərimizin ailə üzvləri və qazilərin hərtərəfli sosial dəstəklə təminatı istiqamətində çoxistiqamətli tədbirlər həyata keçirilir.

Bu dəstək tədbirləri artıq 31 mindən çox şəxsi əhatə edib. Onlara sosial ödənişlərin proaktiv təyinatı, sosial-psixoloji dəstək, reabilitasiya xidmətləri və vasitələri ilə təminat, məşğulluq məsələlərinin operativ həlli, özünüməşğulluq çərçivəsində kiçik bizneslərin qurulması və s. istiqamətlərdə 39 mindən çox xidmət göstərilib.

Nazir dövlət başçısının bu ilin iyunun 25-də imzaladığı fərmanla vahid əlaqələndirmə mərkəzlərinin yaradılmasının da şəhid ailələri üzvlərinə, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçulara və əlilliyi müəyyən edilmiş şəxslərə növbəti mühüm dəstək olduğunu vurğulayıb.

Qeyd edib ki, bu mərkəzlərdə həmin kateqoriyalardan olan insanlara 6-sı mərkəzi, 13-ü yerli icra hakimiyyəti orqanları olan 19 qurum tərəfindən 26 xidmət "bir pəncərə"dən, operativ, şəffaf, vətəndaş rahatlığı və məmnunluğu prinsipi əsasında təqdim edilir. Şəhid ailələri, qazilər bu xidmətləri almaq üçün ayrı-ayrılıqda həmin qurumlara deyil, yalnız bir məkana - vahid əlaqələndirmə mərkəzinə müraciət edirlər.

Avqustun 23-dən ilk mərhələdə Bakıdakı DOST mərkəzlərində vahid əlaqələndirmə mərkəzləri fəaliyyətə başlayıb. Ötən dövrdə bu mərkəzlərə şəhid ailəsi üzvləri və qazilərdən ibarət 2 min 200-dən çox şəxs müraciət edib.

S.Babayev yaxın vaxtlarda ölkəmizin digər regionlarında da vahid əlaqələndirmə mərkəzlərinin fəaliyyətə başlayacağını diqqətə çatdırıb.

Görüşdə Vətən müharibəsinin şəhidi Əli Cabbarovun valideynləri Baba və Yeganə Cabbarovlara "Şəhid ailəsi üzvü" vəsiqəsi təqdim edilib. Dövlət başçısının sərəncamları ilə medallarla təltif edilmiş qəhrəman hərbçilərimizin - Vətən Müharibəsi Qəhrəmanı şəhid Anar Şükürovun "Suqovuşanın azad edilməsinə görə" medalı həyat yoldaşı Şəmsiyyə Şükürovaya, şəhid Manaf Bəhmənlinin "Kəlbəcərin azad olunmasına görə" medalı anası Suray Bəhmənovaya, şəhid Vahid Abbasovun "Xocavəndin azad olunmasına görə" medalı atası Sahib Abbasova təqdim olunub.

Vətən müharibəsində Şuşa istiqamətində döyüşlərdə şəhid olan və Prezident İlham Əliyevin sərəncamlarına əsasən, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilən Ələsgər Cavadovun atası, II qrup əlilliyi olan Elxan Cavadova isə müraciətinə əsasən mühərrikli təkərli oturacaq verilib.

Şəhid ailəsi üzvləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər. Görüşdə ölkəmizdə şəhid ailələri və qazilərlə bağlı görülən işlərə dair fikir mübadiləsi aparılıb, rəy və təkliflər dinlənilib.

# NATO ilə əməkdaşlıq məsələləri müzakirə edilib

Oktyabrın 25-də müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyev ölkəmizdə səfərdə olan NATO-nun Beynəlxalq Hərbi Qərargahının Kooperativ Təhlükəsizlik İdarəsinin rəisi general-mayor Françesko Diellanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonaqları salamlayan Baş Qərargah rəisi Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Qələbədən sonra Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daha da yüksəldiyini qeyd edib.

General-leytenant Kərim Vəliyev Əməliyyat İmkanları Konsepsiyası çərçivəsində əməkdaşlığın xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayaraq, NATO-nun bölmələrimizin bu sahədə hazırlığına verdiyi töhfəni yüksək dəyərləndirib.

General-mayor F.Diella ölkəmizə ilk səfərindən məmnunluğunu ifadə edərək Azərbaycan Ordusunun hərbi qulluqçularının NATO ilə tərəfdaşlıq çərçivəsində bütün sahələrdə fəaliyyətlərini, o cümlədən sülhməramlı əməliyyatlarda iştirakını yüksək qiymətləndirib.

Görüşdə NATO ilə əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivləri müzakirə edilib.

# Əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub

Oktyabrın 25-də Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov BMT-nin Azərbaycandakı nümayəndəliyinin rezident - əlaqələndiricisi xanım Vladanka Andreyeva ilə görüşüb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, Vüqar Süleymanov Vladanka Andreyevanı təyinatı münasibətilə təbrik edib, ona ölkəmizdəki fəaliyyətində uğurlar arzulayıb. Görüşdə işğaldan azad edilən ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları, dövlətin prioritetlərinə əsasən planlaşdırılan layihələr, eləcə də mina və partlayıcı sursatların təhlükəsinə dair maarifləndirilmə proqramı çərçivəsində həyata keçirilən fəaliyyət barədə məlumat verilib.

Söhbət zamanı Azərbaycanda həyata keçirilən humanitar minatəmizləmə sahəsində ANAMA ilə BMT arasında mövcud olan sıx əməkdaşlığın tarixçəsi vurğulanıb. Həmçinin mina qurbanlarına yardım, beynəlxalq standartlar əsasında milli minatəmizləmə standartlarının təkmilləşdirilməsi və partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə fəaliyyətinə mümkün dəstəyin göstərilməsinə dair müzakirələr aparılıb.

BMT-nin rezident - əlaqələndiricisi minatəmizləmə istiqamətində görülən işlərin həcmindən təsirləndiyini və müzakirə olunmuş mövzular üzrə əməkdaşlığın daha da genişləndiriləcəyinə əminliyini bildirib.







# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

## «Xoş gəlmisiniz Zəngilana»



*Əvvəli 1-ci səh.*

2021-ci il oktyabrın 20-si Zəngilan rayonunun işğaldan azad edildiyi günün birinci ildönümü idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məhz həmin gün Zəngilanda bizimlə - rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü. Bu haqda KİV - telekanallar, müxtəlif saytlar geniş və ətraflı məlumat versələr də, düşündüm ki, Prezidentlə 27 il yurdundan didərgin düşən zəngilanlıların görüşü unudulmaz hadisədir. Mən də uzun illərin nisgilini içində daşıyan bir insan kimi təəssüratlarımı bölüşməyə ehtiyac duydum. Çünki bu görüşdə hər birimiz elə kövrək hisslərlə, elə unudulmaz anlarla qarşılaşdıq ki, onların qələmə alınması və oxuculara təqdim edilməsi həddən ziyadə zəruridir.

Bakıdan yola çıxanda fikirləşirdik ki, bu tədbir bir qədər rəsmi olacaq, hər şey protokola uyğun aparılacaq və biz dövlət başçısının çıxışını dinləyəcəyik. Lakin çıxış olmadı, biz qeyri-adi və fərqli səhnələrlə üzləşdik. Azərbaycan Prezidentini daha yaxından gördük, onun ürək sözlərini dinlədik. Kimin ağlına gələ bilərdi ki, Azərbaycan Prezidenti bütün rəsmiyyəti bir yana qoyub, dərdlərimizin, itkilərimizin ağırlığını, Vətənlə 27 illik ayrılığın nə demək olduğunu duyan müdrik insan kimi ən sadə, amma heç vaxt unudulması mümkün olmayan səmimi sözlərlə bizə müraciət edəcək: "Xoş gəlmisiniz Zəngilana. Uzun fasilədən sonra - 27 il erməni işğalından sonra artıq Zəngilan Vətənə qayıtdı, qaytardıq. Şanlı Ordumuz qəhrəmanlıq göstərərək Zəngilan şəhərini və bir neçə kəndi məhz düz bir il bundan əvvəl işğalçılardan azad etdi və beləliklə, 27 illik işğala son qoyuldu. İndi mən "Xoş gəlmisiniz" deyirəm, çünki mən sizi dəvət etmişəm ki, bu gözəl tarixi birlikdə burada qeyd edək. Amma bundan sonra mən Zəngilana gələndə zəngilanlılar "Xoş gəlmisiniz" deyəcəklər".

Bu sözləri televizordan eşitmək, qəzet səhifəsindən oxumaq ayrıdır, dövlət başçısının dilindən Zəngilanda, özü də 27 illik ayrılıqdan sonra eşitmək tamam başqadır. Hamımız bir qədər kövrəlmişdik, çünki ağlımıza belə gəlməzdi ki, bizi doğma torpağımızda ilk dəfə Azərbaycan Prezidenti öz xanımı ilə belə qarşılayacaq və hamımıza "xoş gəldin" deyəcək.

Zəngilan bizi xəfif bir yağışla qarşıladı, sanki vətən də bizim gəlişimizdən kövrəlib bulud yaylığını nisgilli gözlərinə sıxmışdı. Həmişə içində itib əriməkdən zövq aldığımız duman da qarşıdakı dağların sinəsi ilə ehmalca sürüşüb gedirdi. Sanki bu da Zəngilanın dumanlarının buludlara can atan yallısı idi. İnsan ruhuna qürur bəxş edən bu görüşün xoşbəxt dəqiqələrini yaşadıqca sevinc də qəhərlə birlikdə boğazımıza dirənib gözlərimizin aynasında şehə çevrildi.

Təəssüf ki, elindən, ana torpaqdan uzun illər ayrı düşənlərin xatirələri də qubarlı olur. Atamı babamın yanında Zəngilanda dəfn edə bilmədik, ona atasının, anasının məzarı ayağında uyumaq qismət olmadı... Anam elə qəbirlərin dərdini çəkərdi, deyərdi ki, darıxırlar, orda torpaq da, daş da, hər məzar da əzizlərinin yolunu gözləyir. Zaman çoxlarını müqəddəs günün səadətini yaşamaq imkanından məhrum etdi. Bəlkə səbirləri çatmadı, bəlkə bitən ömürləri, qismətləri imkan vermədi. Biz bu xoşbəxt dəqiqələrin səmaları qucaqlayan sevincini yaşayanlardan olduq.

Mən Zəngilanda doğulmasam da, hər il ora gedərdik, yayı ata yurdunda keçirərdik. Hər il yayda Zəngilanda alıb içdiyim limonadın ətri, tamı yadımda Vətən qoxusu kimi qalıb. Bu ecazkar ətri əsla unuda bilmirəm. O limonadın dadına heç vaxt, heç yerdə rast gəlmədim. Axırıncı dəfə Zəngilana gedəndə nə qədər axtarsam da, onu hazırlayanı tapa bilmədim. Dedilər ki, buralarda yoxdur, dükanını bağlayıb döyüşə gedib. Qəribə adam idi, bir dəfə ondan soruşdum ki, sən bunu necə hazırlayırsan? Gülümsədi, zarafatyana cavab verdi ki, bir az dağ çiçəklərini qatıram bulaq



suyuna, bir az da bu yerlərin ətrini... 27 il yaddaşımda qalan bütün bu qoxular yaz çəmənlərinin ətri ilə birlikdə mənə vətəni xatırladıb. Həmişə qubarlananda, vətən xiffəti çəkəndə əlimdən tutub köməyimə gəlib. Yurdumuz belə gözəl, belə şirin olub bizim üçün.

Ali Baş Komandan qurduğu yenilməz ordu ilə işğal edilmiş torpaqları bizə qaytarmaqla bərabər, bir daha unudulmaz xatirələrə reallıqda qovuşmağa imkan yaratdı. Biz bu görüşdə həm də onun şahidi olduq ki, dövlət başçısı Vətən torpağının hər qarışını bizdən daha artıq, daha çox sevirmiş. O, bizə Zəngilanın necə füsunkar təbiətə malik olduğunu, bu yerlərin gözəlliyinə heyran qaldığını dedi: "Əzəmətli dağlar, yaşıl meşələr, çaylar, iqlim - bura, doğrudan da, Azərbaycanın ən gözəl yerlərindən biridir və məqsədimiz də odur ki, Zəngilanı yenidən quraq. Çünki köhnə Zəngilandan bir şey qalmayıb. Siz indi görürsünüz, mənfur düşmən demək olar ki, bütün binaları dağıtmışdır. Bir neçə bina qalıb ki, orada hərbçilər yerləşirdi. Qalan bütün binaları, bütün kəndlərin binalarını bir məqsədlə dağıtmışlar ki, biz buraya qayıtmayaq. Amma biz qayıtmışıq..."

Fikirləşirəm ki, qələbənin sirri də elə bundadır. Dövlət başçısından tutmuş sıravi vətəndaşa kimi hər birimiz işğal altında olan torpaqları sonsuz məhəbbətlə sevdik, nəyin bahasına olursa-olsun geri qayıtmağı qarşımıza məqsəd qoyduq. Görüşdə iştirak edənlər minnətdarlıq hissi ilə Azərbaycan Prezidentinin bütün dünyanı heyran qoyan unikal ordu yarada bildiyini, ona qələbənin və postmüharibə dövründə bərpa işlərinin memarı kimi minnətdarlıqlarını bildirdilər, qələbəni isə XXI əsrin hərb tarixinin möcüzəsi adlandırdılar.

Prezident İlham Əliyev təşəkkür etdi: "Sağ olun. Bu, hamımızın qələbəsidir, Azərbaycan xalqının qələbəsidir. Çünki xalqımız işğal dövründə əyilmədi, vəziyyətlə barışmadı, öz doğma torpaqlarını unutmadı. Hətta bu torpaqları görməyən gənclər də bu torpaqların azad edilməsi eşqi ilə yaşamışlar və ölümə gedən də məhz onlar oldu. Birinci sırada gedən məhz o uşaqlar idi ki, işğaldan sonra dünyaya gəliblər və bəlkə də işğal dövründə onların 5-10 yaşı var idi. Yəni bu, onu göstərir ki, xalqımız müqəddəs Zəfər gününü gözləyirdi, bütün çətinliklərə, əzab-əziyyətlərə baxmayaraq, bu günü gözləyirdi və inanırdı ki, bu gün gələcək və biz də, sadəcə olaraq, bütün xalqımızı səfərbər etmək, gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmək üçün səylər göstərdik".

Biz bu görüşdə dövlət başçısının sıravi insanlara, onların qayğılarına necə diqqətlə yanaşdığını gördük. İlham Əliyev bir daha bizə qələbəyə gedən yolda görülən böyük işlərdən danışdı, ordumuzun, iqtisadiyyatımızın gücləndirilməsi, beynəlxalq mövqelərimizin genişləndirilməsi üçün çalışdığını dedi və xalq-iqtidar birliyi sayəsində qələbənin təməlinin qoyulduğunu bildirdi.

Dövlət başçısı bir daha bütün şəhidlərimizə rəhmət dilədi, torpaqlarımızın onların canı-qanı bahasına işğalçılardan azad edildiyini vurğuladı, Vətən Müharibəsi Qəhrəmanı Surxay Noçuyevin atası ilə söhbətləşdi: "Onların ruhu bu gün şaddır. Onlar az yaşayıblar, dünyadan gənc gediblər, şəhid olaraq gediblər. Amma onlar hər zaman ürəyimizdə yaşayacaqlar. Sizin simanızda onların valideynlərinə mən Prezident, Ali Baş Komandan kimi öz təşəkkürümü bildirmək istəyirəm. Çünki, doğrudan da, bizim şəhidlərimiz şüurlu şəkildə ölümə gedirdilər. Hamımız yaxşı bilirik ki, ağır döyüşlərdə o istehkamları yarmaq, oradan keçmək, dağlara qalxmaq, dağlara dırmaşmaq, xüsusilə Şuşa əməliyyatı tarixdə bəlkə də misli görünməmiş qəhrəmanlıq nümunəsidir. Bunu ancaq milli ruhda böyüyən insanlar edə bilərdilər. Sizin kimi valideynlər onları milli ruhda böyüdüb Vətənə bəxş etdiniz".

Zəngilan bu gün azaddır. Onun tarixində yeni mərhələ, yeni dövr başlayır. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin yorulmaz fəaliyyəti nəticəsində Zəngilan nəinki Şərqi Zəngəzurun, Qarabağın, bütövlükdə Azərbaycanın, həm də yaşadığımız regionun mühüm nəqliyyat-logistika mərkəzi kimi vətənimizin ən dilbər guşələrindən birinə çevriləcəkdir.

***Elçin VƏLİYEV,***
***"Azərbaycan" qəzetinin məsul katibi, tarix üzrə fəlsəfə doktoru***

## Azərbaycanın qələbəsi bölgəyə yeni reallıqlar gətirib

İkinci Qarabağ müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası, 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad olunması ilə başa çatdı.

44 gün davam edən savaşda Azərbaycan Silahlı Qüvvələri İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə işğalçı Ermənistana döyüş meydanında tarixi və layiqli cəza verdi. Qarabağ və Şərqi Zəngəzur artıq düşmən tapdağından azaddır. İndi düşmənin dağıtdığı yurd yerlərimiz sürətlə bərpa edilir.

Torpaqlarımız 30 ilə yaxın işğal altında qalsa da, beynəlxalq təşkilatlar, xüsusən münaqişənin həlli ilə birbaşa məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrləri heç vaxt bu məsələ ilə bağlı obyektiv yanaşma ortaya qoymadılar. Qarabağ bütün dünyada Azərbaycan torpağı kimi tanınsa da, 1993-cü ildə BMT tərəfindən 4 qətnamə qəbul edilsə də, ikili standartlarla üzləşdik, işğalçı öz adı ilə çağrılmadı.

Təbii ki, Azərbaycan bu vəziyyətlə barışa bilməzdi və barışmadı da. Ulu Öndər Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısı kimi Prezident İlham Əliyev dəfələrlə bəyan etdi ki, Azərbaycan torpaqlarında heç vaxt ikinci erməni dövlətinin qurulmasına imkan verilməyəcək. Hər zaman vədlərini yüksək səviyyədə yerinə yetirən dövlət başçısı Vətən müharibəsində də öz sözünü dedi. Darmadağın edilən Ermənistanın və dünya erməniliyinin Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaratmaq xülyasının üstündən birdəfəlik xətt çəkildi.

Bu qələbəni təmin edən Prezident İlham Əliyevin uzaqgörən və müdrik siyasəti idi. Dövlət başçısı 17 il ərzində Azərbaycanın inkişafını təmin edərək xalqımızı bu qələbəyə yaxınlaşdırdı və onu təmin etdi. Düşmən danışıqlar prosesində imitasiya ilə məşğul olanda Azərbaycan inkişaf etdi, maliyyə imkanlarını artırdı. 17 il ərzində ordumuz daha da gücləndirilərək döyüş imkanları ən müasir səviyyəyə çatdırıldı.

Xalqımız ordumuzun döyüş imkanları ilə hərbi paradlarda, Aprel döyüşlərində tanış olmuşdu. Vətən müharibəsi isə ordumuzun gücü və qüdrəti ilə bağlı deyilənlərin tam və əyani təsdiqi oldu. Ordumuzun bütün bölmələri bu döyüşlərdə yüksək döyüş hazırlığı nümayiş etdirdilər. Hərbçilərimiz həm peşəkarlıq, həm də qəhrəmanlıq salnamələri yazdılar. Eyni zamanda xalqımız bu müharibədə Prezident İlham Əliyevin ətrafında sıx birləşdi, milli həmrəyliyin ən möhtəşəm nümunəsini yaratdı.

Bu müharibə İlham Əliyevin şərtləri ilə başa çatdı. Noyabrın 10-da Ermənistan bu şərtlər əsasında yazılmış üçtərəfli bəyanata imza atdı. Bununla da Azərbaycan tək müstəqillik deyil, son bir neçə əsrlik tarixinin ən böyük qələbəsini qazandı.

İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsi bölgəyə yeni reallıqlar gətirdi. İndi azad olunmuş bütün torpaqlar nəhəng tikinti və quruculuq meydanına çevrilib. Eyni zamanda bu qələbə regionda yeni iqtisadi əməkdaşlıq üçün geniş perspektivlər açdı. Xüsusən Zəngəzur dəhlizinin açılması bütün region ölkələrinin maraqlarına xidmət edəcək. Ermənistanın isə bu reallıqlarla barışmaqdan başqa çarəsi yoxdur. Çünki əks halda revanş hissindən əl çəkməsə, Azərbaycanın "dəmir yumruğ"unu yenidən hiss etməli olacaq.

***Ramil NAMAZOV,***
***iqtisad üzrə fəlsəfə doktoru***

## ZƏFƏR gündəliyi

## 26 oktyabr 2020-ci il

Azərbaycan Ordusunun bölmələri 26 oktyabr saat 08:00-dan qüvvəyə minmiş humanitar atəşkəs rejiminə bütün cəbhə boyu tam riayət edir.

❖ ❖ ❖



Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndlərinin və Qubadlı şəhərinin işğaldan azad edilməsi ilə əlaqədar rəsmi "İnstaqram" səhifəsində paylaşım edir:

"Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndləri və Qubadlı şəhəri işğaldan azad edildi! Bu münasibətlə bütün xalqımıza səmimi təbriklərimi çatdırıram! Hər bir yeni qələbənin əldə edilməsi əsgərlərimizin qəhrəmanlığı, şücaəti, cəsarəti, igidliyi və mətanəti sayəsində mümkün olur. Onların hər birinə hədsiz dərəcədə minnətdaram! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖



Ermənistan silahlı qüvvələri növbəti dəfə əldə olunmuş razılaşmanı kobud surətdə pozur.

Saat 08:05-də Ermənistan silahlı qüvvələri yeni humanitar atəşkəs rejimini pozaraq Laçın şəhəri istiqamətindən Laçının Səfiyan kəndində yerləşən Azərbaycan Ordusunun bölmələrini və Tərtərin, Ağdamın kəndlərini artilleriya atəşinə tutur.

❖ ❖ ❖



Prezident İlham Əliyev xalqa növbəti dəfə müraciət edir. Dövlət başçısı Azərbaycan Ordusunun düşməndən azad etdiyi məntəqələrin siyahısını elan edir:

"Zəngilan rayonunda azad edilmiş kəndlər: Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd. Cəbrayıl rayonunun azad edilmiş kəndləri: Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər. Qubadlı rayonunun dünən azad edilmiş yaşayış məntəqələri: Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan və Qubadlı şəhəri!"

Prezident deyir ki, düzdür, azad edilmiş məntəqələrdə bir şey qalmasa da, Azərbaycan öz doğma yurd yerlərini yenidən bərpa edəcək. Buna Azərbaycan xalqının da, dövlətinin də gücü çatacaq. Təki torpağımız azad olsun. Təki bayrağımız işğaldan azad edilmiş bütün torpaqlarda qaldırılsın:

"Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!

Mən hələ müharibənin ilk günlərində sizə söz vermişdim ki, biz düşməni torpaqlarımızdan qovacağıq, sona qədər qovacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖



"Azərbaycan Ordusuna məxsus zərbə PUA-nın cəbhə xəttində guya məhv edilməsi barədə Ermənistanın yaydığı məlumatın heç bir əsası yoxdur və yalandır".

Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilir ki, tam əksinə, bu gün günorta saatlarında Ermənistan-Azərbaycan dövlət sərhədinin Daşkəsən rayonu sahəsində bölmələrimizin mövqeləri üzərində uçuş keçirməyə cəhd göstərən düşmən kvadrokopteri atıcı silahlardan açılan atəşlə məhv edilib.

❖ ❖ ❖



Prezident İlham Əliyev İtaliyanın "Rai-1" televiziya kanalına müsahibə verərək Ermənistanın növbəti təxribatlarını açıqlayır.

Prezident deyir ki, atəşkəs hər dəfə Ermənistan tərəfindən pozulur. Bunun xronologiyası da var: "Onlar təyin edilmiş atəşkəs saatından düz 2 dəqiqə sonra atəşkəsi pozdular. Bu gün saat 08.00-dan yeni atəşkəs qüvvəyə minib. İndi Bakıda səhər saat 10.00-dır. Saat 8-dən təxminən 3-4 dəqiqə sonra Tərtər şəhərinə yenidən bir neçə mərmi atılıb. Biz buna cavab vermirik. Ümid edirik ki, bu, təsadüfən olub. Lakin əgər bu, davam etsə, təbii ki, biz adekvat cavab verməyə məcbur olacağıq".

Dövlət başçısı bir daha sülh razılaşmasının hansı şərtlər əsasında mümkün ola biləcəyini açıqlayır. Bildirir ki, Ermənistan tərəfindən də xoş məram göstərilməlidir. Əgər belə olsa, Azərbaycan Prezidentinin dediyi olacaq: "Əgər olmasa, biz hər bir halda bu torpaqları qaytaracağıq. Döyüş meydanında bugünkü vəziyyət də bunu göstərdi. Biz onları nəyin bahasına olsa, qaytaracağıq. Ya dinc yolla, ya da müharibə yolu ilə, lakin qaytaracağıq. Buna görə düşünürəm ki, Ermənistan rəhbərliyi bu barədə ciddi düşünməli və düzgün addım atmalıdır".

❖ ❖ ❖



Saat 18:15-də düşmən "Smerç" yaylım atəşli reaktiv sistemindən Tərtər şəhərini atəşə tutur. Dağıntılar və yaralananlar var.

❖ ❖ ❖



Müdafiə Nazirliyi işğaldan azad olunmuş Qubadlı şəhərindən və rayonun Xanlıq, Padar kəndlərindən videogörüntülər yayır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



QARABAĞ
dirçəliş yolundadır



◆ Zəfərin izi ilə

# Şuşa indi bütün Qarabağa nur saçır

## Zəfər qalasında ən müasir üsullarla elektrik xətləri çəkilir, yeni yarımstansiyalar tikilir

*Əvvəli 1-ci səh.*







Bəs bu proses necə baş verdi?!

Elxan Əhmədov deyir ki, Azərbaycanın igid oğulları dağlardan, sıldırımlardan aşaraq Şuşanı hansı sürətlə azad etmişdilərsə, "Azərişıq" ASC-nin hər bir üzvü də üzərinə düşən tapşırığı elə o sürətlə yerinə yetirməyə çalışdı. Düşmənin kapitulyasiyasından cəmi 6 gün sonra şəhərdə işığın yanması bunu təsdiqləyən reallıqdır:

"Qarabağ düşmən tapdağından 44 günə təmizləndi. Amma illər ərzində düşmənin məhv etdiyi infrastrukturu yeniləmək, daha müasiri ilə əvəzləmək çox çətin proses idi. Mina təhlükəsi, çətin relyef, qarlı qış günləri, ağır şəraitə baxmayaraq hər kəs üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlmək üçün əlindən gələni əsirgəmədi. Dağlardan, dərələrdən keçməklə elektrik xətləri çəkildi, yeni yarımstansiyalar quruldu.

Şuşa şəhərinin qısa vaxtda elektrik enerjisi ilə təmin olunması üçün 35/10 kV-luq "Daşaltı" yarımstansiyası inşa edildi. Yarımstansiyanı qidalandırmaq üçün "Hadrut" yarımstansiyasından 53,5 kilometr uzunluğunda elektrik verilişi xətti çəkildi. "Hadrut"-"Daşaltı" elektrik verilişi xətti vasitəsilə ilkin mərhələdə Şuşa şəhərinin, Xocavənd rayonunun bəzi kəndlərinin və ətraf ərazilərdəki mühüm strateji obyektlərin, eyni zamanda bu istiqamətdə aparılan yol infrastrukturu və digər tikinti işlərinin elektrik təchizatı təmin edildi. Xəttin keçdiyi ərazi öncə minalardan təmizləndi. Çətin relyef, qar və şaxtalı hava şəraitinə baxmayaraq, 37 gün ərzində gecə-gündüz aparılan işlərdən sonra bu il yanvarın 7-də Şuşa şəhərində Azərbaycan işığını yandırmaq mümkün oldu".

Bu gün Şuşada işığımız yansa da, şəhəri nurlandıranlar daha müasir yarımstansiyaların tikinti prosesini həyata keçirirlər. Onlar gün ərzində səhər saat 08:00-dan axşam saat 21:00-dək (komendant saatınadək) çalışırlar. Əgər gecə qəza baş verərsə, dərhal onun həlli üçün tapşırıq verilir və tez bir zamanda nasazlıq aradan qaldırılır.

Elxan Əhmədovun sözlərinə görə, ümumilikdə Şuşa şəhərində 9 yarımstansiyanın tikintisi nəzərdə tutulur. Hazırda onlardan 5-nin tikintisi gedir. Hər yarımstansiyanın tikinti prosesində 20 nəfər işləyir. Bundan başqa, yeraltı kabellərin çəkilməsi prosesi də davam etdirilir.

Şəhərdə 110/35/10 kilovoltluq "Şuşa" yarımstansiyası fəaliyyət göstərir. Bu yarımstansiyanın tikintisinə ötən ilin noyabr ayında başlanılıb. Eləcə də Füzuli rayonunun "Şükürbəyli" yarımstansiyasından başlayaraq 75 kilometr məsafədə 110 kilovoltluq "Şükürbəyli-Şuşa" hava elektrik verilişi xəttinin tikintisinə start verilib. Yarımstansiya məsafədən idarə olunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulmaqla tam rəqəmsallaşıb. Burada perspektiv inkişaf da nəzərə alınıb. Yarımstansiya və elektrik verilişi xəttinin tikintisinin çətin coğrafi şəraitdə aparılmasına baxmayaraq, ən qısa zamanda yekunlaşdırılıb.

Elxan Əhmədov deyir ki, Füzulidəki "Şükürbəyli" yarımstansiyasından Şuşaya 110 kilovoltluq ikidövrəli elektrik verilişi xətti çəkilişi fasiləsiz, növbəlilik prinsipi ilə 73 günə icra olunub ki, bu da nəinki Azərbaycan energetikası, regionun energetika tarixində rekord göstəricidir.







### Şuşada hava yolu ilə elektrik xətti olmayacaq

Elxan Əhmədovla söhbət əsnasında yol kənarında qazılmış xəndəkdə bir ağsaqqal kişinin həvəslə çalışması diqqətimizi çəkdi. Elə söhbət edə-edə ona tərəf yaxınlaşdıq. Suvaq işləri görürdü. Birdən başını qaldırıb bizə sarı dönüb dayandı. Öncə icazə alıb fotosunu çəkdik. Çox fərəhli və qürurlu idi.






Bəlli olur ki, bu çalışqan insan Novruz Məlikovdur, 60 yaşı var. Uzun müddətdir "Azərişıq" ASC-də çalışır. İşğaldan azad edilən ərazilərdə başlanan tikinti-quruculuq prosesinin fəal işçilərindəndir. Əvvəllər Cəbrayılda, Füzulidə, Xocavənddə çalışıb. Kiçik dialoqumuz zamanı ağsaqqal həm maraqlı fikirlər söylədi, həm də yeni məlumat almış olduq:

*- Yorulmayasınız. Yaman həvəslə işləyirsiniz...*

*- Sağ ol, ay bala. Yaşıma baxma, gördüyüm işə bax. Qurub yaradırıq.*

*- Gündə neçə saat işləyirsiz?*

*- Vallah heç bilmirəm. Səhər açılandan axşama qədər işləyirik. Arada dincəlirik, amma işimizi görürük də.*

*- İndi nə işlə məşğulsuz?*

*- Bax, gör nə dərinlikdədir. Bu dərinlikdən yeraltı elektrik xətti çəkirik. Qoy gələcəkdə nəvələrimiz, nəticələrimiz desinlər ki, bizim də babalarımız Şuşanı qurub-yaradanlardan olub.*

*- İşiniz avand olsun, sağ olun!*

Söhbətimizi Elxan Əhmədovla davam etdiririk və bəlli olur ki, bu gün Şuşada inşa olunan 5 yarımstansiya tikilib başa çatdıqdan sonra gördüyümüz hava elektrik xətləri tamamən yığışdırılacaq, bütün dirəklər söküləcək. Yəni Şuşada hava yolu ilə elektrik xətti olmayacaq, bütün xətlər yeraltı çəkiləcək. Bu isə o deməkdir ki, küləkli, yağışlı, qarlı havada Şuşanın elektrik enerjisi ilə təminatı prosesində problem yaşanmayacaq.

### 135 kilometrlik hava və kabel xətləri

Həmsöhbətimiz bizi maraqlandıran bütün suallara aydınlıq gətirərək deyir ki, bu gün nəinki Şuşanın, işğaldan azad edilmiş bütün rayon və şəhərlərin elektrik enerjisi ilə təchizatı xüsusi önəm kəsb edir. Bu da təsadüfi deyil. Çünki elektrik enerjisi digər sahələrin inkişafını təmin edir, nəticə etibarilə insanların doğma yurd-yuvalarına qayıtmasını tezləşdirir.

Artıq "Azərişıq" ASC tərəfindən Şuşa şəhərini və Xocavənd rayonunu elektrik enerjisi ilə təmin etmək üçün 75 km uzunluğunda hava-kabel xətləri, Laçın rayonunda yerləşən "Güləbird" Su Elektrik Stansiyasından çıxan 10 kV-luq hava xətti tikilib istismara verilib, Xocavənd rayonunda 35/10 kV-luq "Hadrut", Cəbrayıl rayonunda "Hərəkül", Zəngilan rayonunda 35/10 kV-luq "Alıbəyli" yarımstansiyalarında bərpa işləri aparılıb.

İşğaldan azad olunmuş ərazilərdə 135 km-ə yaxın müxtəlif gərginlikli hava və kabel xətləri yeni çəkilib və bərpa olunub, komplekt transformator məntəqələri quraşdırılıb, onlarca transformator məntəqəsində təmir və sınaq işləri aparılıb. Görülmüş işlər nəticəsində Şuşa şəhərində, Qubadlı və Zəngilan rayonlarında yerləşən mühüm strateji obyektlər elektrik enerjisi ilə təmin olunub.

Kəlbəcər rayonunun elektrik enerjisi ilə təmin olunması məqsədilə "Daşkəsən" yarımstansiyasının, eləcə də 31 km uzunluğunda 1-ci və 2-ci Daşkəsən hava xəttinin yenidənqurulması layihəsi hazırlanıb və artıq xəttin tikintisi yekunlaşmaq üzrədir. Eyni zamanda Tərtər rayonunun Suqovuşan qəsəbəsini elektrik enerjisi ilə təmin etmək üçün "Suqovuşan" yarımstansiyası inşa edilib.

Proqram üzrə Ağdam, Kəlbəcər, Laçın rayonlarında 4 ədəd 110 kV-luq yarımstansiyanın, Füzuli rayonunda "Veysəlli", Qubadlı rayonunda yeni yarımstansiyanın tikintisi nəzərdə tutulur.

Bu il may ayının 12-də Prezident İlham Əliyev Şuşaya növbəti səfəri çərçivəsində "Şuşa", iyunun 14-də "Füzuli", oktyabrın 20-də "Zəngilan", oktyabrın 25-də isə "Qubadlı" yarımstansiyalarının açılışını edib. Dövlət başçısı oktyabrın 9-da "Hadrut" qovşaq yarımstansiyasının, oktyabrın 17-də Füzuli rəqəmsal yarımstansiyasının, oktyabrın 20-də Zəngilan rəqəmsal yarımstansiyasının təməlini qoyub.

Göründüyü kimi, İlham Əliyev 30 il ərzində düşmənin daşı daş üstündə qoymadığı, xarabalığa çevirdiyi Qarabağı dəmir iradə ilə bərpa edərək işığı sönən torpaqlarımızı nura boyayır. Prezident Qarabağa hər səfəri zamanı yeni enerji obyektlərinin açılışını edir, bəzilərinin təməlini qoyur. İşğaldan azad olunmuş ərazilərin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchiz edilməsi istiqamətində işlər uğurla davam edir.

### Şuşanın timsalında zəfərimiz parlayır

Hava yavaş-yavaş qaralır. Şəhərin işıqları yanır. Həmin günün iş prosesləri yekunlaşmaq üzrədir. Bir azdan Şuşanın gecə həyatı başlayacaq. Bizə ayırdığı vaxta, verdiyi geniş məlumatlara görə Elxan Əhmədova təşəkkür edib hotelə dönürük.

Yüksəklikdən Şuşamızı, Qarabağın üzük qaşını seyr edirik. Sanki şəhər parlayır. Düz, 28 il zindan həyatı yaşayan şəhərin qaranlığa qərq edilmiş hər guşəsi indi nura boyanır. Yenidən qurulub abadlaşan, dünyanın ən gözəl şəhərinə çevrilən Şuşanın gecələri düşmənin bağrını yarır. Rusiya sülhməramlılarının nəzarəti altında olan ərazilərdən baxanda şəhər alışıb-yanır və Şuşanın timsalında zəfərimiz parlayır.

Düşmən tapdağından qəhrəmanlıqla azad edilmiş şəhərin yeni inkişaf dövrü başlayır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***
*Bakı-Şuşa-Bakı*

# Zəngilanın bütün infrastrukturu ən yüksək səviyyədə yenidən qurulur

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəngilan rayonuna səfəri və bu səfər zamanı keçirdikləri görüşlər, açılış və təməlqoyma mərasimlərində iştirak etmələri, görülən quruculuq işləri ilə tanış olmaları böyük əhəmiyyətə və təsir gücünə malikdir.







Belə ki, haqqın və ədalətin mizan tərəzisinin bir gözündə 30 ilə yaxın işğal müddətində erməni vandallarının törətdikləri vəhşiliklər, o biri gözündə isə yalnız son bir il ərzində görülən möhtəşəm quruculuq işləri və Azərbaycan dövlətinin sülh istiqamətində atdığı böyük addımlar dayanır.

Tarixi baxımdan bu iki zaman kəsiyini müqayisə etmək, tutuşdurmaq mümkün deyil. Çünki 27 illik işğal ərazilərimizin viran qoyulması, kəndlərin və şəhərlərin Yer üzündən silinməsi ilə bağlıdır. Biz bu illər ərzində "qədim mədəniyyəti" və "müdrikliyi" ilə öyünən bir xalqın faşist törəmələrinin ağlasığmaz vəhşiliklərinin şahidi olduq. Təbiətə divan tutulmuş, Qarabağın ən gözəl meşələri qırılmış, çayları zəhərlənmiş, yolları dağıdılmış, hətta heç vaxt heç bir işğalçının toxunmadığı qəbiristanlıqlara divan tutulmuşdur. Azərbaycan isə indi sürətlə erməni vandallarının dağıtdıqlarını bərpa edir. Biz qurub-yaradan xalq olduğumuzu, onlar isə vandallıqlarını sübut etdilər.

Prezident İlham Əliyev Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə rayonun yenidən qurulacağını vurğuladı: "...məqsədimiz də odur ki, Zəngilanı yenidən quraq. Çünki köhnə Zəngilandan bir şey qalmayıb. Siz indi görürsünüz, mənfur düşmən demək olar ki, bütün binaları dağıtmışdır. Bir neçə bina qalıb ki, orada hərbçilər yerləşirdi. Qalan bütün binaları, bütün kəndlərin binalarını bir məqsədlə dağıtmışlar ki, biz buraya qayıtmayaq. Amma biz qayıtmışıq, şanlı Ordumuz düz bir il bundan əvvəl Azərbaycan bayrağını Zəngilanda qaldırdı və düşməni bu torpaqlardan qovdu".

Düşmənin 27 il ərzində dağıtdıqlarını Azərbaycan sürətlə bərpa edir, yenidən qurur və dövlət başçısnın dediyi kimi, Zəngilanın yeni dövrü başlayır. Artıq bir xarici şirkət baş planın üstündə işləyir və yaxın aylarda onu təqdim edəcək. Düşmənə gözdağı olsun deyə bütün təbii gözəllikləri nəzərə alan çox gözəl bir şəhər qurulacaq. Eyni zamanda dağılan kəndlərə də ikinci həyat bəxş ediləcək.

Onu da xatırlatmaq yerinə düşər ki, torpaqlarımız işğaldan azad edildikdən sonra dövlət başçısı 4 dəfə Zəngilana səfər etmişdir. Birinci dəfə vəziyyətlə tanış olmuş, ikincə dəfə ermənilər tərəfindən bir çox hissəsi dağıdılmış Bəsitçay qoruğunda elliklə çinar ağaclarının əkilməsi tədbirində iştirak etmişdi. Prezident üçüncü dəfə, bu ilin aprelində Zəngilana gələrkən hava limanının təməlini qoymuşdu. Sonuncu - dördüncü dəfə gələndə isə görülən işlərin siyahısının daha da uzandığını görürük. Bu dəfə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Zəngilan" yarımstansiyasının açılış mərasimində, rəqəmsal yarımstansiyanın təməlqoyma mərasimində iştirak ediblər. Dövlət başçısı və birinci xanım Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə, Zəngilan Beynəlxalq Hava Limanında tikintinin gedişi və Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış oldublar. Qeyd edək ki, işğaldan azad olunmuş bütün torpaqlarda ilk olaraq "ağıllı kənd" layihəsi məhz Zəngilan rayonunda həyata keçirilir.

"Ağıllı kənd"in salınması üçün 110 hektardan çox ərazidə tikinti işləri aparılmış, innovativ tikinti materiallarından istifadə olunmaqla tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagirdlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. "Ağıllı məktəb"də distant təhsilin aparılması da nəzərdə tutulur. Park meydanında fəvvarənin ərazisində abadlıq işləri yekunlaşmış, burada quraşdırılacaq memarlıq abidəsi də hazırlıq mərhələsindədir. "Ağıllı kənd"də müasir şəhərsalma standartları tətbiq olunacaq, piyada və velosiped yolları çəkiləcək.

Burada kənd təsərrüfatının təşkili və inkişafı üçün istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilmiş, lazımi innovativ texnikaların siyahısı hazırlanmışdır. "Ağıllı kənd təsərrüfatı"nda müasir suvarma sistemləri və əkin planı hazırlanmış, 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılmışdır. Kənd təsərrüfatı fəaliyyətinin bərpası və inkişafı üçün qurulması planlaşdırılan fermada 250 baş iribuynuzlu və 600 baş xırdabuynuzlu malqaranın saxlanması nəzərdə tutulur. Burada "ağıllı idarəetmə sistemi" data və təhlil mərkəzindən həyata keçiriləcək. Bir sözlə, Zəngilan yüksək texnologiyaların tətbiq edildiyi ən müasir rayonlardan birinə çevriləcək.

Rayonun bütün infrastrukturu yüksək səviyyədə bərpa edilir. Prezident İlham Əliyev əminliklə deyir ki, Zəngilan ölkəmizin nəqliyyat-logistika mərkəzinə çevriləcək: "Çünki Zəngəzur dəhlizi buradan keçir, dəmir yolu, Horadiz-Ağbənd avtomobil yolu tikilir. Zəngəzur dəhlizinin açılması ilə bağlı son hadisələr onu göstərir ki, istədiyimizə nail oluruq... Ona görə artıq avtomobil yolunun açılışı məsələsi həll olunur, dəmir yolu məsələsi həll olunur. Bu gün Moskvada Azərbaycan, Rusiya, Ermənistan baş nazirlərinin müavinləri növbəti dəfə görüşəcəklər və bizim mövqeyimiz orada bir daha səslənəcək. Beləliklə, Zəngilanda müasir logistika-nəqliyyat mərkəzi, yük təyyarələri, sərnişin təyyarələri, dəmir yolu qovşağı, avtomobil yolları - bütün infrastruktur qurulacaq".

Bir sözlə, deyə bilərik ki, Zəngilan Azərbaycanın ən müasir və böyük əhəmiyyətə malik olan bölgəsinə çevriləcək.

Sonda bir daha Azərbaycanla Ermənistanı müqayisə edək: bizim nəyə qadir olduğumuzu, onların isə nə dərəcədə vəhşi və vandal olduqlarını dünya gördü.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Şəhid ailələri və müharibə əlillərinə, digər həssas qruplardan olanlara daha 50 mənzil verilib



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakının Xocasən qəsəbəsində şəhid ailələri, müharibə əlilləri, gözdən əlilliyi olan şəxslər və dövlət uşaq müəssisələrinin məzunlarına daha 50 mənzil təqdim edilib.

Mənzillərin sənədlərini əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev təqdim edib.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə keçirilən tədbirdə çıxış edən H.Abdullayev oktyabrın 25-nin Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun ötən il Vətən müharibəsində Qubadlını işğaldan azad etdiyi gün olduğunu deyib. Qeyd edib ki, 30 ilə yaxın Ermənistanın işğalı altında qalan Qubadlı bu gün azaddır və azad edilmiş bütün yurd yerlərimiz kimi, orada da üçrəngli bayrağımız dalğalanır.

Nazir müavini möhtəşəm Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra şəhid ailələri və qazilərlə bağlı genişmiqyaslı dəstək tədbirlərinin həyata keçirildiyini bildirib. Diqqətə çatdırıb ki, artıq 31 min şəxs bu dəstək tədbirləri ilə əhatə olunub. Zəfəri bizə yaşadan qəhrəman şəhidlərimizin ailələrinə və qazilərimizə növbəti mənzillərin təqdim edilməsi dövlətimizin həm də sosial sahədə güclü, uğurlu siyasətini göstərir.

H.Abdullayev ötən dövrdə 11 min şəhid ailəsi və müharibə əlilinə mənzil və fərdi ev verildiyini, dövlət başçısının sərəncamı ilə 2021-2025-ci illərdə daha 11 min mənzil və fərdi evin bu kateqoriyalardan olan şəxslərə verilməsinin nəzərdə tutulduğunu diqqətə çatdırıb. Bildirib ki, 2021-ci il üzrə 3 min mənzil və fərdi evin verilməsi işləri davam etdirilir və onlardan artıq 1850 mənzil verilib. Vətən müharibəsi qəhrəmanlarının, onlardan şəhid olanların ailələrinin, həmçinin gözdən əlilliyi olan şəxslərin, dövlət uşaq müəssisələri məzunlarının da mənzillə təminatı işləri davam etdirilir.

Yeni mənzillərlə təmin edilənlər Prezident İlham Əliyevin xüsusi qayğısını hər zaman hiss etdiklərini vurğulayıblar. Onlar bu gün yeni mənzillərlə təmin edildiklərinə görə dövlət başçısına dərin minnətdarlıqlarını ifadə ediblər.

# Ağdam və Tərtərdə insan hüquqlarının pozulması faktları yerində araşdırılacaq



Ölkəmizdə səfərdə olan Bolqarıstan Respublikasının Ayrı-seçkiliyə qarşı Müdafiə üzrə Komissiyasının rəhbəri Ana Cumaliyevanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə Ombudsman Aparatında görüş keçirilib.

Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı ombudsman Səbinə Əliyeva qonaqları salamlayaraq, iki ölkə arasında inkişaf edən qarşılıqlı əlaqələrdən, həmçinin bu yaxınlarda baş tutmuş Bolqarıstan səfərindən bəhs edib. Tərəflər arasında imzalanmış Anlaşma Memorandumunun insan hüquq və azadlıqlarının təmini istiqamətində əlaqələrin dərinləşməsinə töhfə verəcəyi bildirilib.

Görüşdə Azərbaycan ombudsman təsisatının fəaliyyət istiqamətləri, yeni yaradılmış struktur bölmələri barədə qonaqlara ətraflı məlumat verilib.

Bununla yanaşı, ombudsman Vətən müharibəsi dövründə Ermənistan tərəfindən törədilmiş beynəlxalq humanitar hüquq pozuntuları, habelə beynəlxalq ictimaiyyətin bu faktlar barədə məlumatlandırılması məqsədilə təsisatın həyata keçirdiyi araşdırma fəaliyyəti barədə ətraflı məlumat verib. Diqqətə çatdırılıb ki, müharibə dövründə 7, daha sonra isə 3 faktaraşdırıcı missiya həyata keçirilib, nəticələrlə bağlı hesabatlar hazırlanaraq müvafiq beynəlxalq təşkilatlara ünvanlanıb.

A.Cumaliyeva Azərbaycan ombudsmanına təşəkkürünü bildirərək, ölkələrimiz arasında inkişaf edən əlaqələrdən danışıb. O, həmçinin iki təsisat arasında qarşılıqlı təcrübə mübadiləsinin aparılması barədə fikirlərini bölüşüb, ayrı-seçkiliklə mübarizə sahəsində fəaliyyətləri ilə bağlı məlumat verib.

Qeyd edək ki, səfər çərçivəsində bir sıra rəsmi görüşlərin keçirilməsi, Ağdam və Tərtərdə insan hüquqlarının pozulması faktlarının yerində araşdırılması nəzərdə tutulub.

# Azərbaycan nümayəndə heyəti Milli Olimpiya Komitələri Assosiasiyasının Baş Assambleyasında iştirak edib



Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) nümayəndə heyəti Milli Olimpiya Komitələri Assosiasiyasının (MOKA) XXV Baş Assambleyasında iştirak edib.

MOK-dan AZƏRTAC-a bildiriblər ki, tədbirdə ölkəmizi Azərbaycan Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyev, beynəlxalq əlaqələr şöbəsinin müdiri Anar Bağırov və marketinq şöbəsinin müdiri Mehman Kərimov təmsil ediblər.

MOKA-nın XXV Baş Assambleyasında bir sıra mühüm məsələlər müzakirə olunub. MOKA komissiyalarının 2017-2020-ci illər olimpiya dövrü üçün hesabatları dinlənilib və qənaətbəxş qiymətləndirilib. Həmçinin 2021-2024-cü illər olimpiya dövrü üçün MOKA-nın strateji planı, 2023-cü ildə MOKA-nın II Dünya Çimərlik Oyunlarının İndoneziyada təşkilinə dair təklif də iclas iştirakçılarının müsbət rəyini alıb. "Tokio-2020" Olimpiya Oyunlarında fərdi və komanda hesabında fərqlənmiş qadın və kişi idmançılar, həmçinin ötən dövrdə Olimpiya hərəkatının inkişafına mühüm töhfə verən və fəallığı ilə seçilən Milli Olimpiya komitələri MOKA-nın xüsusi mükafatları ilə təltif olunub. İclasda futbol üzrə dünya çempionatının iki ildən bir keçirilməsi təklifi kəskin tənqid edilib. Bundan başqa, MOKA Əfqanıstandan olan idmançıların təxliyəsi və onlara lazımi dəstək göstərilməsi ilə bağlı Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Baxa çağırış edib.

Baş Assambleya çərçivəsində Azərbaycan nümayəndə heyəti BOK-un Olimpiya Həmrəyliyi Fondu ilə MOK-un 2021-2024-cü illərdə həyata keçirməyi planlaşdırdıqları bir sıra mühüm və genişmiqyaslı layihələri müzakirə edib. Olimpiya mədəniyyəti və təhsil proqramının, rəqəmsal kommunikasiya və sosial media üzrə regional seminarın keçirilməsi məsələlərini də müzakirə edən nümayəndə heyəti televiziya marketinq xidmətləri, Olimpiya oyunlarına bilet satışı, qonaqlama və lisenziya xidməti mövzusunda BOK-un təqdim etdiyi təkliflərə dair də fikir mübadiləsi aparıb.

# Ege Universitetinin tədqiqatçıları ermənilərin Şuşada həyata keçirdikləri vandalizmlə bağlı toplu hazırlayacaqlar

Türkiyənin Ege Universitetinin Türk Dünyası Araşdırmaları İnstitutu ermənilərin Şuşa şəhərində tarixi-mədəni abidələrimizə qarşı vandalizmi barədə toplu hazırlayacaq.





AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu məqsədlə Türk Dünyası Araşdırmaları İnstitutunun müdiri Nadim Macitin və institutun əməkdaşları Vəfa Qurbanın, Aygül Uçarın, Rüçhan Buburun daxil olduğu tədqiqat qrupu oktyabrın 25-də Şuşa şəhərinə səfər edib. Şəhərin müxtəlif ərazilərində çəkilişlər edən qonaqlara Şuşanın tarixi, memarlıq abidələri, 1992-ci ildə Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilməsi, 30 ilə yaxın dövr ərzində erməni vandalizminə məruz qalması və 2020-ci ilin noyabrında Azərbaycan Ordusu tərəfindən işğaldan azad edildikdən sonra bərpa-quruculuq işlərinə başlanılması barədə məlumat verilib.

Əvvəlcə Şuşanın mərkəzi meydanında görkəmli bəstəkar, musiqişünas, ictimai xadim Üzeyir Hacıbəyli, şairə, rəssam və ictimai xadim Xurşidbanu Natəvan və Xalq artisti Bülbülün güllələnmiş heykəllərini ziyarət edən tədqiqatçılara bu dahi şəxsiyyətlərin həyat və yaradıcılıqları haqqında məlumat verilib. Bildirilib ki, ermənilər tuncdan hazırlanmış heykəllərdən gəlir əldə etmək məqsədilə onları əvvəlcə İrəvana, sonra da Gürcüstana aparıblar. Gürcüstanda yaşayan həmvətənlərimiz təsadüfən bu heykəlləri görüblər. Bununla bağlı müvafiq qurumlara məlumat verilib. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər satın alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə heykəllər öz əvvəlki yerlərinə qaytarılıb.

Qala divarları ilə tanışlıq zamanı bildirilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq simvolu olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Sonra tədqiqat qrupu Şuşa şəhərindəki qədim məhəllələrdə, Saatlı, Aşağı və Yuxarı Gövhər ağa məscidlərində olublar. Məlumat verilib ki, 30 illik işğal dövründə dini abidələr, o cümlədən məscidlər erməni vandallığına məruz qalıb. Şuşa işğaldan azad olunandan dərhal sonra bu məscidlərdə təmir-bərpa işlərinə başlanılıb. Şuşa şəhərindəki tarixi binalar, o cümlədən Azərbaycan mədəniyyətində və tarixində görkəmli yer tutmuş şəxslərin evləri də ermənilər tərəfindən dağıdılıb. Qonaqlar görkəmli musiqiçi Sadıqcanın evi, XVIII əsrə aid Şirin su hamamı, XIX əsrə aid karvansara və digər tarixi-mədəni abidələrlə tanış olublar.

Türk Dünyası Araşdırmaları İnstitutunun müdiri Nadim Macit AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində deyib: "Şuşadakı tarixi mədəniyyət abidələrinin erməni vandalizminə məruz qalması ilə bağlı məlumatlarımız vardı. Bunu yerində görmək istədik. Burada bir xalqın mədəniyyətinə təcavüz edildiyinin şahidi olduq. Beynəlxalq hüquqda müharibənin də qaydaları var. Xocalıda qadınların, uşaqların öldürülməsi, Şuşada məscidlərin, tarixi abidələrin dağıdılması cinayətdir, vandalizmdir. Biz ermənilərin Şuşada həyata keçirdikləri bu vandalizm aktlarını araşdırıb toplayacaq və ingilis dilində toplu hazırlayıb bütün dünyaya yayacağıq".

Ege Universitetinin Türk Dünyası Araşdırmaları İnstitutunun Sosial iqtisadi və siyasi əlaqələr kafedrasının professoru Vəfa Qurban deyib: "Türk Dünyası Araşdırmaları İnstitutu "Şuşa - erməni işğalından əvvəl və erməni işğalından sonra" adlı layihəyə başlayıb. Bu layihə üç mərhələdən ibarətdir. Birinci mərhələ Şuşadakı təxminən 200-ə yaxın tarixi abidənin arxiv görüntülərini əldə etdik. İkinci mərhələdə məqsəd bu tarixi binaları yerində araşdırmaq və dəymiş ziyanı ortaya çıxarmaqdır. Biz hazırda Şuşada bu mərhələni həyata keçiririk. Gördüklərimiz dəhşətlidir. Burada tarixi abidələrə qarşı vandalizm həyata keçirilib. Üçüncü mərhələdə isə əldə etdiyimiz məlumatlar, erməni vandalizmi dünyaya çatdırılacaq. Bunun üçün ingilis dilində kitab çap ediləcək".

Türk Dünyası Araşdırmaları İnstitutu Türk sənəti kafedrasının əməkdaşı Aygül Uçar isə bildirib ki, layihənin məqsədlərindən biri də işğalın tarixi abidələri təsirini öyrənməkdir. "Şuşadakı abidələrin işğaldan əvvəlki fotolarını görmüşdük. Burada gördüklərimizdən sarsıldıq. Bura ruhlar şəhərinə çevrilib. Əminəm ki, tezliklə hər şey əvvəlki kimi olacaq", - deyə o, əlavə edib.

Qeyd edək ki, təhqiqat qrupunun koordinatoru Dünya Azərbaycanlıları Konqresinin sədri Asif Qurban, layihənin tərəfdaşları Azərbaycanın Türkiyədəki səfirliyi və Ege Universitetidir. Layihəyə "Tural Grup" (İzmir) şirkəti dəstək verir.

# Azərbaycan 2021-ci ildə Avropanın Aparıcı Mədəni və Aparıcı Ekskursiya destinasiyaları nominasiyalarında qalib olub

Oktyabrın 22-də Azərbaycan "28-ci Dünya Səyahət Mükafatları" tədbirində 2021-ci il üzrə Avropanın Aparıcı Mədəni destinasiyası və Avropanın Aparıcı Ekskursiya destinasiyası nominasiyalarında birinci yerə layiq görülüb.

Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, qaliblərin elan olunması mərasimi virtual formatda keçirilib.

Qlobal turizm və səyahət sənayesinin ən nüfuzlu mükafatlarının qalibi olmaqdan məmnun olduqlarını qeyd edən Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid bildirib ki, Azərbaycan ekskursiya və mədəni turizm üçün ideal destinasiyadır:

"Biz bütün bu gözəllikləri kəşf etmək üçün səfər edəcək turistləri ölkəmizdə qarşılamağı səbirsizliklə gözləyirik".

Baş icraçı direktor Azərbaycan torpaqlarının işğaldan azad edilməsinin turizmin inkişafı istiqamətində yeni səhifə açdığını, Qarabağa xas turizm məhsullarının inkişaf etdirilməsinin, həmçinin bu regionda daxili və beynəlxalq turistlər üçün təcrübə və infrastrukturun təkmilləşdirilməsinin ATB-nin əsas fəaliyyət istiqamətlərindən biri olduğunu diqqətə çatdırıb.

Qeyd edək ki, Azərbaycanın zəngin mədəni müxtəlifliyi, tolerantlıq və multikulturalizm kimi dəyərlərinin turistlər arasında təbliğ edilməsi Azərbaycan Turizm Bürosunun əsas fəaliyyət istiqamətlərindən biridir.

ATB UNESCO-nun mədəni və qeyri-maddi irsi siyahısında olan mədəni və tarixi abidələrin, təcrübələrin təbliğatı, eləcə də dayanıqlı və ekoloji turistik məhsulların hazırlanması istiqamətində çoxsaylı layihələr həyata keçirməkdədir.

Bunlar arasında Qafqaz dağlarında piyada turizm marşrutlarının işarələnməsi, "Slou Fud" konsepsiyası çərçivəsində orqanik məhsulların üzə çıxarılması, ornitoloji turizm (quşların müşahidəsi), həmçinin infrastruktur layihələri var.

# "Zəngəzur dəhlizi Ermənistanın xilası olacaq"

## Keçmiş hərbi xunta təmsilçilərinə qarşı erməni cəmiyyətində etirazlar yüksəlir

Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması bu gün regionda sabitlik baxımından ümdə şərtlərdən biridir. Lakin Ermənistandakı revanşist qüvvələr prosesin baş tutmaması üçün məkrli niyyətlərini gizlətmədən aşkarda nümayiş etdirirlər.

Ermənistan parlamentinin "Hayastan" fraksiyasının deputatı Tadevos Avetisyan iddia edir ki, bu məsələlər reallaşarsa, Türkiyə-Azərbaycan kapitalı Ermənistan iqtisadi sistemini tez bir zamanda mənimsəyə bilər. Bununla yanaşı, guya, Ermənistanın iqtisadi sistemi bölgədəki müqayisəli üstünlüklərini və marağını, şimal-cənub kommunikasiyasının təmin edilməsi baxımından əlverişli coğrafi mövqeyini itirəcək: "Ermənistan ərazisindən keçəcək yeni kommunikasiyalar Türkiyə-Azərbaycan qarşılıqlı iqtisadi asılılığının yeni səviyyəsini formalaşdıracaq, Ermənistanın iqtisadi təhlükəsizliyi baxımından yeni uzunmüddətli problemlər gətirəcək".

Xatırladaq ki, İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra regionda kommunikasiya xətlərinin bərpası və yenilərinin yaradılması Azərbaycan xarici siyasətində ən prioritet məsələlərdən biri kimi gündəmdədir. Bu kontekstdə rəsmi Bakı ötən ilin noyabrın 10-da Azərbaycan, Rusiya, Ermənistan liderləri tərəfindən imzalanan üçtərəfli Bəyanata əsasən, nəqliyyat marşrutlarının bərpasına, o cümlədən də Zəngəzur dəhlizinin istifadəyə verilməsinə xüsusi diqqət yetirir.

Regionda sovetlər dönəmində mövcud olmuş kommunikasiya xətlərinin, o cümlədən Zəngəzur dəhlizinin işə düşməsində Azərbaycanla yanaşı, Rusiya da maraqlı tərəflərdən biri kimi çıxış edir. Bunu Rusiya Prezidenti Vladimir Putin "Valday" Beynəlxalq Klubunun iclasındakı çıxışında bir daha təsdiq edib: "İndi Azərbaycan Naxçıvanla normal əlaqə qurmaqda, eləcə də kommunikasiyaların açılmasında maraqlıdır, bu, Ermənistanın qarşısında duran ən vacib vəzifələrdən biridir. Ermənistan regionda effektiv iqtisadi həyat qurmaq, qarşılıqlı əlaqə yaratmaq, o cümlədən gələcəkdə Azərbaycanla münasibətlərin qurulması, Türkiyə ilə dondurulmuş münasibətlərin açılmasında prinsipcə maraqlıdır".

Erməni ekspert Ruben Safrasyan bildirir ki, kommunikasiyaların açılması, sərhədlərin müəyyən edilməsi ölkəsinin düşdüyü blokada vəziyyətindən xilası olacaq: "Zəngəzur dəhlizi bütün tərəflərin milli maraqlarına tam cavab verir. Zəngəzur dəhlizi Ermənistanın xilası olacaq. Üçtərəfli Bəyanatın 9-cu bəndində göstərilir ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Bəyanatın bu bəndi Zəngəzur dəhlizinin reallaşması istiqamətində hüquqi zəmin yaradır. Yəni Ermənistan bu dəhlizin açılması üçün üzərinə götürdüyü öhdəliyi yerinə yetirməlidir. Əgər bu, baş verməsə, Azərbaycan yenə güc tətbiq etmək məcburiyyətində qalacaq. Bu da bizim üçün məqbul deyil və xalq buna qarşıdır".

Beləliklə, xalq və hakimiyyətin mövqeyi Zəngəzur dəhlizində üst-üstə düşür. Ancaq sabiq prezident Robert Koçaryanın rəhbərlik etdiyi "Hayastan" bloku buna qarşı çıxaraq ara qarışdırmaqla məşğuldur. Onun qarşıdakı günlərdə təşkil etmək istədiyi mitinq də buna hesablanıb. Bir sıra siyasi analitiklərin fikrincə, buna səbəb Ermənistanın Azərbaycanla sülh sazişi imzalamasına mane olmaq, həmçinin regionda kommunikasiya xətlərinin açılmasının qarşısını almaqdır. Lakin bu mitinq Ermənistanda hansısa dəyişikliyə səbəb olmayacaq.

Elə rusiyalı politoloq Oleq Kuznetsov da məsələyə bu prizmadan yanaşır. O, qeyd edir ki, dəhlizlərin açılması, sülh müqaviləsinin imzalanması Azərbaycandan başqa Ermənistana, o cümlədən Rusiyaya da çox lazımdır: "Dəfələrlə demişəm ki, Cənubi Qafqazda nəqliyyat, iqtisadi əlaqələrin bərpası Azərbaycandan, Ermənistandan, xarici tərəfdaşlar simasında Türkiyə və İrandan daha çox Rusiyaya lazımdır. Son 30 ildə Naxçıvan Muxtar Respublikası daimi iqtisadi blokadada olub. Həm iqtisadi, həm də siyasi nöqteyi-nəzərdən Rusiya bu layihənin reallaşmasına ehtiyac duyur".

Bildirilir ki, ən əsas da geosiyasi cəhətdən buna lüzum var, çünki üçtərəfli Bəyanatın icrasının yubadılması Cənubi Qafqazda hərbi-siyasi və iqtisadi nəzarətə iddialı olan Moskvanın xarici siyasət imicinə neqativ təsir göstərir. Hazırda regiondakı danışıqlar prosesi və potensial iqtisadi əlaqələrdə Kreml özünü kifayət qədər nüfuzu olmayan iştirakçı kimi göstərir. Bölgə üçün Rusiyanın əhəmiyyəti iqtisadi əlaqələrin bərpasının və nəqliyyat koridorlarlarının açılmasının nə qədər tez baş verəcəyinin proporsional asılılığındadır. Bu nə qədər gec baş verərsə, bölgədəki sahibkarlıq və siyasət subyektləri üçün Moskvanın əhəmiyyəti, çəkisi də bir o qədər az olacaq. O səbəbdən şəxsən Putin də daxil, bütün Rusiya hökuməti çox böyük səy göstərir ki, rəsmi Bakı və İrəvan arasında sıx siyasi əlaqələr qurulsun.

Oleq Kuznetsovun sözlərinə görə, Vladimir Putinin son çıxışlarında toxunduğu məqamlar da məhz bununla bağlıdır. Ermənistan rəsmiləri bu fonda kommunikasiyanın açılmasına razı olduqlarını bildirirlər. Bu ölkədəki revanşist qüvvələr isə buna əngəl olmaq üçün nə daxili, nə də xarici dəstəyə malikdirlər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Özbəkistan Azərbaycanın iqtisadi inkişaf modelini öyrənir

Özbəkistan Respublikası Prezident Administrasiyası yanında İqtisadi Təhlil və İslahatlar Mərkəzinin direktoru Obid Hakimovun rəhbərliyi ilə nümayəndə heyəti Azərbaycanın iqtisadi inkişaf modelinin öyrənilməsi məqsədilə ölkəmizdədir.




İqtisadi İslahatların Təhlili və Kommunikasiyası Mərkəzindən (İİTKM) bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə yaradılmış iqtisadi islahatların idarə edilməsi modeli, "ASAN", DOST, KOBİA, "Azexport" kimi brendlərin təcrübəsi özbək nümayəndə heyəti tərəfindən öyrəniləcək. Prezident Administrasiyası, Milli Məclis və müxtəlif dövlət qurumlarında görüşlərin keçirilməsi planlaşdırılır.

Özbəkistan nümayəndə heyətinin səfərinin təşkilatçısı İİTKM-dir.

Səfərin gedişində Özbəkistan Respublikası Prezident Administrasiyası yanında İqtisadi Təhlil və İslahatlar Mərkəzi ilə İİTKM arasında anlaşma memorandumunun imzalanması gözlənilir.

## Qubadlıda radio və televiziya yayımı təmin olunub

Rayonun Xanlıq Radio-Televiziya Yayım Stansiyasının mövcud 50 metrlik qülləsindən istifadə olunmaqla 8 TV və 2 radio proqramının Qubadlı şəhəri və Qubadlı rayonunun 12 kəndində (Əlibəyli, Qoturbulaq, Xocahan, Qapanlı, Muğanlı, Hal, Xanlıq, Hənzəli, Əfəndilər, Qəzyan, Saray, Yuxarı Mollu) yayımı təmin olunub.

Xatırladaq ki, indiyədək işğaldan azad olunmuş ərazilərdə radio-televiziya yayım stansiyalarının fəaliyyətinin bərpası istiqamətində bir sıra işlər həyata keçirilib. Belə ki, Şuşa Radio-Televiziya Yayım Stansiyasında müvafiq avadanlıqlar quraşdırılmaqla 2020-ci il dekabrın 31-dən Şuşa, Xankəndi şəhərləri və Xocalı, Ağdam, Bərdə rayonları, eləcə də ətraf yaşayış məntəqələri TV və radio yayımı ilə təmin olunub. Bununla yanaşı, bu il oktyabrın 4-də Kəlbəcər şəhərində 17 metrlik yeni metal qüllə və müvafiq yayım avadanlıqları qurularaq istismara verilib. Bununla da Kəlbəcər şəhəri və rayonun ətraf 15 kəndində 8 TV və 1 radio proqramının yayımı bərpa edilib.

Cari il oktyabrın 20-də Zəngilan rayonunda Mincivan Radio-Televiziya Yayım Stansiyasının mövcud 30 metrlik qülləsindən istifadə olunmaqla 8 TV və 2 radio proqramının Zəngilan şəhəri və Zəngilan rayonunun 10-dan artıq kəndində yayımına başlanılıb.

Qeyd edək ki, hazırda işğaldan azad olunmuş digər ərazilərdə radio və televiziya yayımlarının bərpası istiqamətində işlər davam etdirilir, o cümlədən Xocavənd rayonunun Hadrut qəsəbəsinin Şahyeri stansiyasında bərpa işlərinin cari ilin sonunadək tamamlanması nəzərdə tutulur.

## Tovuzda üzüm yığımı davam edir

İqtisadiyyatının əsasını aqrar sahə təşkil edən Tovuzda üzümçülüyün xüsusi yeri var. Hazırda rayonda 808 hektar üzüm bağı var və onun 14,5 hektarı bu il salınıb. Üzüm bağlarının 668 hektarı süfrə, 140 hektarı texniki sortlardır.



İstehsal edilən məhsulun saxlanılması və uyğun vaxtlarda realizə olunması üçün rayonda 8 soyuducu anbar quraşdırılmışdır. Fermerlər məhsulun bir hissəsini qışda satmaqdan ötrü həmin soyuducularda saxlayır, qalan hissəsini daxili bazarlara çıxarırlar. Texniki sortlardan əldə olunan məhsul isə sərfəli qiymətlərlə 2019-cu ildən rayonda fəaliyyətə başlamış üzüm emalı müəssisəsinə təhvil verilir.

Ümumiyyətlə, rayonda bu gəlirli sahənin inkişafını daha da sürətləndirmək üçün tədbirlər görülür. Rayonun müvafiq qurumlarının nümayəndələri tez-tez üzüm bağlarında olur, yarana biləcək problemlərin həlli üçün qabaqlayıcı tədbirlərin görülməsində təsərrüfat sahiblərinə lazımi kömək göstərirlər. Sonda onu da qeyd edək ki, rayonda üzüm yığımı davam edir. Artıq plantasiyalardan 21 min tondan çox üzüm toplanaraq emal müəssisələrinə və satışa göndərilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Yevlax - azad Qarabağın abad qapısı

Bu gün doğma Azərbaycanımızın beynəlxalq aləmdə söz sahibinə, bütün Qafqazda isə güc mərkəzinə çevrilməsi hər bir ölkə vətəndaşında haqlı qürur doğurur, könül rahatlığı yaradır. Qələbə ilə sonuclanan 44 günlük Vətən müharibəsi xalqımızın, dövlətimizin, ordumuzun şərəf salnaməsinə çevrilib, dillərdə dastan olub. Bu müqəddəs savaşda biz qalib gəlib 30 illik Qarabağ həsrətinə son qoyduq, dədə-baba yurdlarımız, dağıdılıb viran qoyulmuş kəndlərimiz, şəhərlərimiz erməni işğalından azad edildi.



İndi Qarabağa Qarabağın əsl sahibləri qayıdırlar. Həm də tükənməz qurub-yaratmaq arzusu ilə. İndi Qarabağ fərqli bir dönəm yaşayır. Xain və hiyləgər, eyni zamanda çoxüzlü (iki üzlü yox!) qonşularımızın məkrli planları Qarabağa doğan günəşi əsla qaraltmaq zorunda deyil. Bölgədə gedən proseslər bizim üçün bir də ona görə məqbul hesab edilməlidir ki, mütləq hakim olan zaman bir çox qaranlıqları işıqlandırır, kimin kim olduğunu, hansı məqsədə çatmaq istədiyini, zaman-zaman qaranlıq bətnində saxladığı bəd niyyətlərini aydınladır. Əlbəttə, bu, ağrılı proses olsa da, məntiqlə, nəticə etibarilə xeyrimizədir. Çünki dostumuzu, düşmənimizi bir daha ayırd edib, xırda detallarına qədər tanıyırıq. Müdrik atalarımız yaxşı deyiblər ki, dost dar gündə sınanar.

Xalqımız, dövlətimiz üçün dar günlər, ağır zamanlar artıq arxada qalıb. Biz zamanın çətin sınaqlarından mərdliklə, əsl kişilər kimi çıxan, hər məqamda ortaya konkret mövqe qoyan dostlarımızla yenə qolqolayıq, birlikdəyik. Yenə atalarımızın hikmətini xatırlayırıq. "Güc birlikdədir!" Qoy gücümüzə güc qatan, qüdrətimizi artıran bu birlik əbədi olsun!

Bu gün qürur duyduğumuz parlaq qələbəmizi labüd edən, zərurətə çevirən amillər çoxdur. Onların sırasında dövlət başçısının, Müzəffər Ali Baş Komandanın müdrik və uzaqgörən siyasəti, nəyi necə və nə zaman etmək məharəti, eyni zamanda xalq-ordu birliyinin monolit və yenilməz hala gətirilməsi əsas şərtlər əsasında yer alır. Əlbəttə, qüdrətli ordunu güclü iqtisadiyyatı olan dövlət qura bilər. Məhz bizi qələbəyə aparan yol ölkəmizin güclü iqtisadiyyatından keçir. Bu etibarlı təməlin, bu güclü bünövrənin yaradılması üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımız illər xərclədi, halal zəhməti, mənalı əməyi ilə xarüqələr yaratdı, inkişafda yüksəlişə dönməz xarakter verməyi bacardı. Regionların sosial-iqtisadi inkişafına dair ardıcıl dövlət proqramlarının qəbul edilməsi, inkişaf etmiş dünya dövlətlərindəki mütərəqqi texnologiyaların ölkəyə gətirilməsi, müasir Avropa standartlarına uyğun sənaye parklarının, aqroparkların yaradılması, ümumi inkişafdan geri qalan aqrar sektorun inkişafına dövlət dəstəyinin artırılması digər zəruri tədbirlərin görülməsi, heç şübhəsiz, öz məntiqi nəticələrini verdi.

Bu gün xalqımız bir yaşlı böyük zəfərin sevincini yaşamaqdadır. Bu parlaq qələbəyə sanballı töhfələr verən yevlaxlıların da sevinmək, qürurlanmaq haqqı böyükdür. Son iki ildə Yevlaxda abadlıq, quruculuq, təsərrüfat işləri sözün həqiqi mənasında zərbəçi ahəng almışdır. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı hələ müharibədən əvvəl ümumi əmək devizinə çevrilmişdi. Rayonda yaradılan sağlam mənəvi-psixoloji mühitin, aparılan məqsədyönlü siyasi-ideoloji işin sayəsində hər kəs - müəllim də, həkim də, pambıqçı da, taxılçı da, baramaçı da, heyvandar da öz mənalı əməyi ilə qələbə üçün çalışdığının fərqində idi. Əlbəttə, çəkilən zəhmət, axıdılan alın təri öz fərəhli bəhrələrini verməyə bilməzdi. Fikirlərimizi əsaslandırmaq üçün konkret faktlara nəzər salmaq yerinə düşər. Müharibə şəraitində yaşamağın fərqində olan yevlaxlılar silah qədər çörəyin vacib olduğunu yüksək dəyərləndirərək bu ilin məhsulu üçün 12021 hektarda taxıl əkmişlər. Aqrotexniki tələblərə yüksək səviyyədə əməl edilməsi sayəsində zəmilərdə bol məhsul yetişdirilmiş, biçin kampaniyası bir dəni belə itkiyə vermədən uğurla başa çatdırılmışdır. Hər hektarın məhsuldarlığı 33 sentnerə yüksəlmiş, 2020-ci ilə müqayisədə 1007, 2019-cu ilə nisbətən isə 2307 ton çox taxıl istehsal edilmişdir. Bütövlükdə cari ildə rayonun təsərrüfatlarında 40 min tona yaxın taxıl tədarük edilmişdir.

Rayonun kənd əməkçiləri cari təsərrüfat ilində 1096,5 ton günəbaxan, 615,6 ton qarğıdalı, 1480 ton kartof, heyvandarlığın yem bazasını möhkəmləndirmək üçün 248.871 ton yonca otu, 2470 ton bostan məhsulları istehsal etmişlər. Ət, süd, yun, yumurta istehsalında da fərəhli nəticələr qazanılmışdır. Kənd zəhmətkeşlərinin əmək bəhsində baramaçılar xüsusilə fərqlənmişlər. 300 qutu ipəkqurdu toxumundan 8048,22 kiloqram barama istehsal edilmişdir. Bu, keçən ildəkindən 3948 kiloqram çoxdur. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, bütün növ kənd təsərrüfatı məhsulları istehsalında son iki illə müqayisədə diqqət çəkən irəliləyişlər əldə edilmişdir.

Bu günlər isə Yevlaxda pambıq yığımının qızğın çağıdır. Bu il rayonun təsərrüfatlarında 2327,6 hektar sahədə pambıq əkilmiş, böyük zəhmət bahasına tarlalarda bol məhsul yetişdirilmişdir. Pambıqçılar məhsul yığımında texnikaya üstünlük verirlər. 9 pambıqyığan maşın, 27 traktor, 59 qoşqu və s. texniki vasitələr yetişdirilmiş məhsulu tez və itkisiz yığıb tədarük etmək məqsədilə səfərbər edilmişdir. Son günlər havaların əlverişsiz keçməsi yığımın sürətini zəiflətsə də, pambıqçıların qələbə əzminə təsir etmir. İndiyədək 3000 tondan çox pambıq yığılıb təhvil verilmişdir. Bu, 2019-cu ilin eyni dövrü ilə müqayisədə təxminən 2 dəfə çoxdur. Keçən il 8149 ton pambıq tədarük edən yevlaxlıların hədəfi bu il 8500 tondur. Tarlaların bol məhsul yığımının nümunəvi təşkili deməyə əsas verir ki, Yevlax pambıqçısı qarşısındakı hədəfə uğurla çatacaq, yeni nailiyyətlər qazanacaqdır.

Rayonda pambıq yığımı, gələn ilin məhsulu üçün taxıl səpini, digər təsərrüfat tədbirləri uğurla davam etdirilir. Məqsəd ölkə iqtisadiyyatının daha da güclənməsinə sanballı töhfələr vermək, eyni zamanda torpaqla ünsiyyət bağlayan kənd əməkçilərinin dolanışıq səviyyəsini, güzəranını daha da yaxşılaşdırmaqdır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinə mediatur təşkil olunub

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Bakıda yaradılan, geniş, çoxşaxəli fəaliyyət sahələrini əhatə edən DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinə mediatur təşkil olunub.



Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı ilə oktyabrın 22-də açılışı olan mərkəz əlilliyi olan şəxslərin, şəhid ailəsi üzvlərinin, digər sosial cəhətdən həssas qrupların yaradıcı potensialının inkişaf etdirilməsi və cəmiyyətə təqdim edilməsində geniş inklüziv imkanlar açır. Məqsəd həssas qrupların cəmiyyətə inteqrasiyasına, sosial-mədəni mühitin inklüziv çalarlarla daha da zənginləşməsinə mühüm dəstəkdir.

Tikintisi PAŞA Holdinq tərəfindən maliyyələşdirilən, "Cobalt Architecture and Design" şirkətinin arxitektura, layihələndirmə və təşkilati yönümlü dəstək verdiyi mərkəz bu baxımdan ölkəmizdə daha bir uğurlu sosial tərəfdaşlıq nümunəsidir.

Mərkəzdə 5 yaşdan yuxarı şəxslərin qəbul ediləcəyi, burada eyni vaxtda 100-dək şəxsə müxtəlif peşələrin öyrədiləcəyi, 60 işçinin, 20 DOST könüllüsünün çalışacağı bildirilib.

Media nümayəndələri 121 nəfərlik auditoriumdan, kitabxanadan, 9 müxtəlif studiya və inzibati otaqlardan, yeməkxanadan ibarət DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ilə tanış olublar. Xalçaçılıq və toxuma studiyasında olarkən qeyd edilib ki, burada Azərbaycan xalçaçılıq sənəti, onun əsas 7 xalçaçılıq məktəbinin əsasları tədris ediləcək. Taxta-metal üzərində oyma emalatxanasında ağac, metal, daş üzərində bədii oyma sənəti, keramika studiyasında dulusçuluq (gilin, keramik əşya və dekorativ məmulatların hazırlanması və s.), təsviri sənət studiyasında kətan, kağız, şüşə, ipək və s. üzərində rəsmlər işlənməsi tədris olunacaq.

Jurnalistlər həmçinin floristika və landşaft studiyasında olublar. Studiyada floristika və landşaft dizaynının təlimi, süni, qurudulmuş və canlı güllərdən natürmortların, kompozisiyaların hazırlanması, terrarium, bitki rezervuarlarının dizaynı və s. üzrə bacarıqlar inkişaf etdiriləcək.

Səsyazma və media, rəqs otaqları, musiqi studiyası ilə tanış olan KİV nümayəndələrinə otaq və studiyanın fəaliyyət profilləri barədə ətraflı məlumat verilib. Mərkəzin 64 nəfərlik yeməkxanasında isə əlilliyi olan şəxslərə milli və Avropa kulinariyası üzrə təlimlər, kulinariya yarmarkaları və s. təşkil ediləcəyi bildirilib.

Media təmsilçiləri mərkəzdə teatr quruluşları, müxtəlif musiqili konsert proqramları və s. üçün nəzərdə tutulan 121 yerlik, həmçinin ön hissədə əlil arabalarının yerləşdirilməsi üçün kiçik sahəsi olan auditorium, kitabxana ilə tanış olublar. Onlara inklüziv teatrlar və nazirliyin "Bərabərik" layihəsinə dair video-məlumat təqdim edilib. Kitabxanada Azərbaycan ədəbiyyatına, həmçinin müxtəlif peşə və sənət tədrisinə aid kitablar vardır. Burada görmə məhdudiyyətli şəxslər üçün brayl əlifbası ilə olan kitablardan ibarət guşələr də yaradılacaq. Eləcə də əlilliyi olan şəxslərin kitablarının təqdimatı, məşhur yazıçıların iştirakı ilə qiraət, imza günləri keçiriləcək.

Nazirliyin nəşr etdirdiyi növbəti "Əlillik qüsur deyil" kitabı barədə də məlumat verilib.

## Nohur balıqçılığı hər cəhətdən sərfəlidir



### Bu sahə ölkədə balığa olan tələbatı ödəməklə yanaşı, əkinə yararsız torpaqlardan istifadəyə də imkan verir

Salyan qədimdən balıqçılığın inkişaf etdiyi bölgələrdən olub. Hələ çar Rusiyası zamanında burada Kür çayı boyunca bir neçə balıqçılıq vətəgəsi fəaliyyət göstərib. Tutulan müxtəlif növ balıqlar konserv edildikdən, duza qoyulduqdan, qaxac edildikdən sonra müxtəlif ünvanlara göndərilib.

Sonralar - keçmiş SSRİ dövründə də Salyanda həm nərəcinsli, həm də pulcuqlu balıqlar bol idi. Yaşlı nəslin nümayəndələri deyirlər ki, İkinci Dünya müharibəsi illərində əhalini aclıqdan Kürün balığı xilas edib. Təəssüf ki, SSRİ-nin süqutundan sonra bir çox sahələr kimi, balıqçılıq da tənəzzülə uğradı. Xəzər dənizində, Kür çayında, digər sututarlarda qanunsuz balıq ovu baş alıb getdi və nəticədə bəzi balıq növləri nəsli kəsilmək təhlükəsi qarşısında qaldı.

1993-cü ildə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev başqa sahələrlə bərabər, balıqçılığın inkişafı üçün də mühüm qərarlar verdi. Neftçala rayonunun Xıllı qəsəbəsində müasir tələblərə cavab verən Nərəbalıqartırma zavodu inşa edildi. Bu sahədə işlər indi də davam edir. Neftçala rayonu ərazisində uzun illər istifadəsiz qalan və ya çox az güclə işləyən balıqyetişdirmə müəssisələri yenidən qurulur.

Uzun illər Salyanda balıqçılıqla məşğul olanlar, bu sahəni özlərinə peşə seçənlər çox olmuşdur. Amma sonralar qeyd etdiyimiz səbəb üzündən balıqçılar məcbur olub başqa sahələrə üz tutmuşlar. Son illər isə bu işə maraq yenə artmışdır. Ayrı-ayrı adamlar nəinki əkib-becərmək, hətta otlaq kimi istifadəyə yararsız olan bələdiyyə torpaqlarını icarəyə götürüb süni göl yaradır, çəki, belamor, tolstrob cinsli balıqlar yetişdirib bazara çıxarırlar. Hazırda rayon ərazisində yüz hektarlarla balıq nohurları var ki, onun da müəyyən hissəsi Şorsulu kəndindədir. Burada balıq yetişdirilməsi ilə məşğul olan Sədyar Əhədov, Ələkbər Ələkbərov, Əfsərağa Cavadov, Xaləddin Axundov və başqaları hər il nohur balıqçılığından yaxşı qazanc götürürlər.

Hələ uşaq yaşlarından balıqçılığa böyük həvəsi olan Farid Əhədov atasından və əmilərindən balıq yetişdirməyin sirlərini öyrənmişdir. F.Əhədov bu il 6,7 hektarda 10 tona yaxın çəki və tolstrob yetişdirmişdir. O, ailənin yeganə oğlan övladıdır. Atası Nəsrəddin Faridi oxutdurmaq, ali təhsilli görmək arzusunda idi. Lakin pay torpaqlarını əkib-becərmək, mal-qara bəsləmək, nəhayət, balıq yetişdirmək kimi işlərə sonsuz maraq, böyük həvəs onu doğulub boya-başa çatdığı kəndə bağlayıb. Bunlar isə ona eldə-obada dərin hörmət qazandırıb. Ondan qat-qat yaşlılar belə bir iş görəndə Faridin fikri ilə hesablaşır, ondan faydalı məsləhətlər alırlar.

F.Əhədov özü deyir:

- Balıqçılıq maraqlı sahədir. Amma gərək balıqların zəhmətini çəkəsən, yeməyini, suyunu hər gün nəzarətdə saxlayasan. Su məsələsinə gəldikdə demək istəyirəm ki, biz göl balıqçılığında əsasən əkin sahələrinin suvarılması zamanı kollektor-drenaj şəbəkələrinə çıxar kimi toplanan və nasoslar vasitəsilə dənizə axıdılan şor sulardan istifadə edirik. Daha doğrusu, sudan təkrarən istifadə etməklə, təbiətə ziyan vurmadan, əkinçilikdəki suvarma suyuna, necə deyərlər, şərik olmadan balıq yetişdiririk. Həmin sular sonda yenə də dənizə axıdılır.

Göründüyü kimi, F.Əhədov və nohur balıqçılığı ilə məşğul olan digərləri ölkədə balığa olan tələbatın ödənilməsində yaxından iştirak edirlər. Özü də əkinəyararsız torpaqlardan və istifadə olunmuş sulardan təkrarən istifadə etməklə.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Deməsək olmur

# “Deyəsən, torbada pişik var”

## Yaxud dövlətin dəstəyi sayəsində fəaliyyət göstərən özəl müəssisələr jurnalistlərdən niyə qaçır?

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı, o cümlədən əhalinin bol, ekoloji cəhətdən təmiz ərzaq məhsulları ilə təmin edilməsi, yeni iş yerlərinin yaradılması və digər istiqamətlərdə genişmiqyaslı işlər görülür. Həmin işlərin icrası üçün ən müxtəlif qeyri-neft sahələrinə investisiyalar qoyulur, sahibkarlara güzəştli kreditlər verilir, onların istehsal etdikləri məhsullar təşviq edilir.

Təəssüf ki, həmin vəsaitlərlə inşa olunan bəzi müəssisələrin, obyektlərin tikintisi illərlə uzadıldığından onlar yalnız gözdağına bənzəyir. Məsələn, Bakının Qaradağ rayonu ərazisində - Xəzər dənizindəki “göydələnlər” kompleksi və ya Salyan şəhərindəki Şəkər yemi zavodu kimi. Tikilən obyektlərin bəziləri isə perspektivi, gələcəkdə hansı səmərəni verəcəyi nəzərə alınmadığından ya istehsal gücündən qat-qat aşağı işləyir, ya da heç işləmir. Amma biz bu dəfə beləsləri haqqında yox, işləyən müəssisələr barədə söhbət açacağıq.

Hacıqabul Quşçuluq fabriki Azərbaycanın bu sahə üzrə iri müəssisələrindən biridir. O, sovetlər birliyi zamanında fəaliyyət göstərmiş fabrikin bazasında yaradılmışdır. İnsafən demək lazımdır ki, ötən illər ərzində burada çox işlər görülmüş, fabrik sənaye təməli əsasında yenidən qurulmuşdur. Təsərrüfatın yem bazası üçün əkin sahələri də var. Fabrikdə çox sayda işçi çalışır və onlara müəyyən qədər qayğıkeşlik göstərilir. Belə ki, müəssisədə çalışanlar işə xüsusi avtobuslarla aparılıb-gətirilir, fabrikdə pulsuz nahar edirlər. Bütün bunların nəticəsidir ki, rayonda keçən il istehsal olunan 199 milyon ədəd yumurtanın və 1819 ton quş ətinin çoxu bu müəssisənin payına düşmüşdür.

Ümumiyyətlə, müəssisənin iqtisadi göstəriciləri qənaətbəxşdir.

Elə buna görə də fabrikin fəaliyyəti barədə bir neçə dəfə yazmaq istəmişik. Gəl ki, müəssisənin rəhbərliyi hər dəfə bir bəhanə ilə yaxasını kənara çəkib. Sözü də bu olub ki, fabrikdə deyillər. Amma eşitmişik ki, fabrikin qeyri-rəsmi investoru keçmiş yüksək çinli məmurlardan biridir. Ona görə də müəssisənin fəaliyyəti ilə maraqlanmağa heç kim cürət etmir. Rayon icra hakimiyyətində isə deyirlər ki, xüsusi mülkiyyət olduğundan onlara heç bir söz deməyə səlahiyyətləri yoxdur.

Aqroparklar ölkədə yaradılan yeni, müasir kənd təsərrüfatı müəssisələridir. Müəssisə ona görə deyirik ki, həmin təsərrüfatlarda işlər demək olar ki, sənaye üsulu ilə təşkil edilir. Onların hər biri kifayət qədər torpaq sahəsi, əkin suyu ilə təmin olunurlar. İşıq, yol problemləri də yoxdur. Yeri gəlmişkən qeyd edək ki, bu gün Azərbaycanda 40-dan çox aqropark fəaliyyət göstərir. Bir müddət öncə onlardan biri - Cəlilabad rayonu ərazisində yerləşən Günəşli Aqroparkı (“Günəşli-Aqro” MMC) haqqında məqalə hazırlamaq istədik. Məlumatımız var idi ki, MMC-yə xarici ölkələrdən çox sayda məhsuldar cins inəklər alınıb gətirilmişdir. Bundan əlavə, magistral şose yolunun kənarında yerləşən aqroparkın görünən tövlələri, ot tayaları, müxtəlif adda texnikaları, suvarma qurğuları və s. təsərrüfatın ət və süd məhsulları istehsalında sanballı çəkiyə malik olması barədə müəyyən təsəvvür yaradırdı. Necə deyərlər, aqropark ölkənin aqrar sektorunda görülən işləri göstərmək üçün axtardığımız obyekt idi.

Təsərrüfatın giriş qapısındakı gözətçi daxili telefonla idarənin məsul işçisinə gəlişimiz barədə məlumat verdi. Onun isə cavabı belə oldu: “Mən özbaşına bu işə icazə verə bilmərəm, gərək Bakıdakı ümumi rəhbərlə danışıb ondan razılıq alam”.

İki saata yaxın gözləməli olduq. Gözətçidən bir də zəng edib nəticəsini öyrənməyi xahiş etdik. Məsul şəxslə özüm danışmaq istədiyimi bildirdim. Telefonun o biri başından “İcazə verilmir” cavabı gəldi. Rayon icra hakimiyyətinin, rayon dövlət aqrar inkişaf mərkəzinin məsul işçilərinin də kömək etmək cəhdləri nəticəsiz qaldı.

Rayonlarda yaradılan sənaye məhəllələri yerli potensial və imkanlar nəzərə alınmaqla həm daxili tələbatın ödənilməsinə, həm də yeni iş yerlərinin yaradılmasına hesablanmışdır. Məsələn, Neftçaladakı Sənaye Məhəlləsində istehsal olunan balıq yemi sexi rayondakı balıqçılıq təsərrüfatlarının və balıq yetişdirməklə məşğul olan fermerlərin əməlli-başlı karına gəlir. Əhali də yeri gələndə bundan razılıq edir.

Amma bu müəssisənin də fəaliyyəti barədə yazı hazırlamaq istəyimiz düyünə düşdü. Burada da “mərkəzin razılığı olmadan icazə verə bilmərik” dedilər. Biz ümidsiz olsaq da, mərkəzə bu barədə məlumat verilməsini xahiş etdikdə isə “razı deyil” cavabı gəldi.

Bəli, jurnalistin işi indi belədir. Fikirləşirsən ki, dövlət başçısı mühüm məsələlərin həlli üçün çalışır, müvafiq sərəncamlar imzalayır və onların icrası üçün nə lazımdırsa edir. Belə bir siyasət təbliğ olunmalı, KİV vasitəsilə əhali bunlardan xəbər tutmalıdır. Yaxşı işin təbliğinin nəyi pisdir ki? Yox, əgər qeyd etdiyimiz müəssisələrdəki kimi, kim isə bunu istəmirsə və istəməmək nədir, hətta hər cəhdlə bunun qarşısını alırsa, deməli, ən azından “torbada pişik var”.

Amma inanın, jurnalist olaraq bizim məqsədimiz həmin “pişiyi tapmaq” yox (bu, müvafiq dövlət orqanlarının işidir), dövlətin dəstəyi sayəsində ərsəyə gələnləri xalqa çatdırmaqdır.

***Seyran CAVADOV,***
***“Azərbaycan”***

# “Azercell”dən yeni Wi-Fi kampaniyası

## 4G modem alan hər kəsə 50 Gb internet hədiyyə olunur




Yüksəksürətli interneti hər kəs üçün əlçatan edən “Azercell Telekom” yeni Wi-Fi cihazının satışına start verir. Kampaniya çərçivəsində son model Wi-Fi cihazı ilə birgə 1 aylıq 50Gb internet cəmi 129 AZN-ə təqdim olunur. Həm 4G, həm də 3G şəbəkələrini dəstəkləyən bu cihazın daha bir üstünlüyü paylaşılan yüksəksürətli internetə eyni anda 32-yə qədər cihazın qoşula bilməsidir. “Azercell” Wi-Fi modemi yalnız smartfonları deyil, hətta kompüter, noutbuk, planşet, printer və televizoru da şəbəkəyə qoşmaq üçün kifayət qədər universaldır.

Yeni 4G Wi-Fi modem yalnız ev və ya ofisdə işləmək üçün nəzərdə tutulmayıb. İstirahət zamanı bu kiçik ölçülü və yüngül cihazı istənilən yerə daşıyıb internetdən istifadə etmək olar.

Geniş əhatə dairəsi 15-20 metrlik radiusda olan qurğuları sabit internetlə təmin etməyə imkan verdiyindən, daim cihazın yanında qalmağa ehtiyac yoxdur. Digər tərəfdən, yeni Wi-Fi modeminin müasir görünüşü istənilən evə və ya ofisə ideal dizayn əlavəsi ola bilər.

Kampaniyaya dərhal qoşulub yüksəksürətli internetdən yararlanmaq üçün ən yaxın “Azercell” satış məntəqəsinə müraciət etmək kifayətdir. Kampaniya çərçivəsində hər bir “Azercell” Wi-Fi modemi ilə birgə 1 ədəd “Data tarifi”ndə olan nömrə və 50Gb-lıq internet paketi təqdim olunur.

“Azercell”in yeni Wi-Fi kampaniyasına qoşul və yüksəksürətli internet əldə et!

## AMEA-nın Fizika İnstitutu açıq (elektron) *tender elan edir*

Tenderin predmeti:

AMEA-nın Fizika İnstitutu üçün elektrotexniki avadanlıqların kompüter, printer, kondisioner, tozsoran və cihazların(inteqral, mikrosxem və yarımkeçirici cihazların hazırlanmasının fotolitoqrafiq prosessləri zamanı təsvirlərin fotoşablona və yarımkeçirici plostinə yerləşdirilməsi və fotoşablondan təsvirlərin plostinlərin fotozestiv qatından köçürülməsi üçün) satın alınması

(Malların siyahısı və parametrləri **etender .gov.az** portalında bu tender üzrə səhifənin müvafiq xanasında yerləşdirilmişdir.)

Tender iştirakşıları **etender.gov.az** dövlət satınalmalarının vahid elektron portalına daxil olaraq (Bundan sonra Portal) tenderlə bağlı ətraflı məlumat ala bilərlər.

Tender Portal vasitəsilə aparılır, tenderlə bağlı bütün sual, cavab və izahlar Portal vasitəsilə aparılır.

Tenderdə iştirak etmək üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (notarial qaydada təsdiq edilmiş);*
- *qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmaması barədə, son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatlarının surətləri;*
- *iddiaçının mikro, kiçik və ya orta sahibkar olması barədə sənəd (müvafiq orqan tərəfindən verilən arayış).*

İddiaçı haqqında AMEA-nın Fizika İnstitutu tərəfindən tələb olunan digər ixtisas uyğunluğu sənədlərində aşağıdakı məlumatlar əks etdirilməlidir:

- *maliyyə informasiyası (şərtlər toplusunda təqdim edilən Əlavə 4 formada);*
- *ixtisaslaşma məlumatları (şərtlər toplusunda təqdim edilən Əlavə 3 formada);*
- *şərtlər toplusunda göstərilən digər sənədlər;*
- *iddiaçının analoji cihaz və avadanlıqların təmirinin aparılması üçün servis mərkəzi olmalıdır.*

Tenderdə iştirak etmək üçün iştirak haqqı 70 manat “ASAN ödəniş” sistemi ilə Portalda qeyd edilmiş hesaba ödədikdən sonra Portaldan şərtlər toplusunu əldə edə bilərlər.

Tenderdə təklifin qüvvədə olma müddəti zərflər açılan gündən sonra ən azı 40 bank günü təyin edilir.

Tender təklifi üzrə tələb olunan malların çatdırılması müqavilə imzalandıqdan sonra ən çoxu 30 bank günü təyin edilmişdir.

İddiaçılar tenderdə iştirak etmək üçün sənədləri (bank təminatı və tender təklifi istisna edilməklə) 17 noyabr 2021-ci il saat 10:00-dək qədər Portalda təqdim etməlidirlər.

Bank təminatı və tender təklifi və qiymətləndirmə üçün lazım olan digər sənədlər isə 25 noyabr 2021-ci il saat 09:30-dək Portalda təqdim edilməlidir.

Tender təklifləri 26 noyabr 2021-ci il saat 10:00-da Portalda açılacaqdır.

Tenderlə əlaqədar əlavə məlumat almaq üçün Fizika institutunun baş iqtisadçısı, satınalma mütəxəssisi Xanlar Xanlarovla Portalın sual - cavab bölümündə əlaqə saxlamaq olar. Əlaqə telefonu: (012) 539-69-53.

Tenderin şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir və bütün sənədlər Azərbaycan dilində təqdim edilməlidir.

***Tender komissiyası***

# Goranboylular peyvəndlənmədə fəaldırlar

Goranboyda koronavirusun qarşısının alınması, yerlərdə karantin rejimi qaydalarına ciddi əməl olunması və mövcud vəziyyətin nəzarətdə saxlanılması məqsədi ilə tədbirlər davam edir.





Rayon icra hakimiyyəti yanında Operativ Qərargahın üzvlərinin, rayon polis şöbəsi əməkdaşlarının, yerli icra nümayəndələri və bələdiyyələrin, ağsaqqal, ictimai fəal və könüllülərin iştirakı ilə yaradılmış mobil qruplar tərəfindən bütün yaşayış məntəqələrində gündəlik monitorinqlər keçirilir, maarifləndirici təbliğat işləri aparılır.

Qeyd edək ki, rayonda COVID-19 pandemiyası ilə əlaqədar ümumilikdə 23 minə yaxın tibbi test keçirilmişdir. Testin nəticələri müsbət çıxmış 4700 nəfər müalicə olunaraq sağalmış, 101 nəfər vəfat etmişdir. Hazırda 127 aktiv xəstə qeydiyyatdadır. Bundan 3 nəfəri xəstəxanada, 124 nəfəri isə ev şəraitində müalicə olunur.

Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası”na uyğun olaraq, Goranboy rayonunda da əhali arasında vaksinasiya işləri davam etdirilir.14 oktyabr 2021-ci il tarixə verilən məlumata görə, rayon üzrə 91015 doz istifadə olunmuşdur. Bundan 50048-i 1-ci, qalanı 2-ci dozdur.

Aparılan əməli tədbirlərin nəticəsidir ki, son günlər rayon ərazisində yoluxma hallarının sayı azalır, sağalanların sayında isə yüksək dinamika müşahidə olunur.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi “Əhali arasında məişət zorakılığından müdafiə vasitələrinə etimadın təşviqi (kreativ çarx)”, “Narkomaniyaya qarşı mübarizədə təbliğat kampaniyasının təşkili”, “Şəhid ailəsinə cəmiyyətdə xüsusi diqqətin təbliği (tanıtım)”, “Şəhid ailələrinin və ya müharibə əlillərinin həyat hekayəsi”, “Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların övladlığa götürülməsinin təşviq edilməsi (tanıtım çarx)” adlı müsabiqələr keçirir

Müsabiqələrdə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, “Çinar Park” Biznes Mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqələrdə iştirak edən təşkilatların təklifləri 11 noyabr 2021-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 12 noyabr 2021-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5037)

***Müsabiqə komissiyası***

# “İmmunitet sertifikatı” bitdikdən sonra 56 gün müddətində “buster” doza vurduran şəxslər müddətsiz “İmmunitet sertifikatı” alacaq

“Azərbaycan Respublikasında “COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası”na uyğun olaraq ölkə üzrə peyvəndlənmə prosesi davam edir və avqust ayından etibarən ölkədə “buster” dozanın vurulmasına başlanılıb.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Marketinq və ictimaiyyətlə əlaqələr departamentindən AZƏRTAC-a bildirilib ki, “buster” dozanın vurulma tarixi ilə bağlı vətəndaşları maraqlandıran məsələlər nəzərə alınaraq bir daha qeyd edirik ki, COVID-19 xəstəliyinə yoluxmuş və “İmmunitet sertifikatı” əldə etmiş şəxs 6-cı aydan başlayaraq, yəni sertifikatın qüvvədəolma tarixi bitdikdən sonra 56 gün müddətində “buster” doza vurdura bilər. “Buster” dozanı vurdurmaqla vətəndaş “İmmunitet sertifikatı”nın müddətini müddətsiz olaraq uzadır.

Məlumat üçün qeyd edək ki, yoluxmadan 5 ay sonra vaksinasiya üçün randevu.its.gov.az saytı üzərindən onlayn növbə götürülə bilər.

Əgər “buster” dozanı vurdurmaq üçün tələb olunan vaxt, yəni ki, 56 gün ötürülərsə, o zaman “Peyvənd” sertifikatı əldə etmək üçün hər iki doza vaksin vurulmalıdır.







## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankına məxsus Bakı şəhəri M.Seyidov küçəsi, 20A ünvanında yerləşən inzibati binanın mühafizəsinin təşkil edilməsi xidmətinin satın alınması ilə bağlı keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 04 oktyabr 2021-ci il tarixli qərarına əsasən “İNAM ÖZƏL MÜHAFİZƏ ŞİRKƏTİ” MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Dövlət Maliyyə Nəzarəti Xidmətinin rəis müavini Süleyman Məmmədova qızı

**NİGAR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyi Dövlət Maliyyə Nəzarəti Xidmətinin kollektivi xidmətin rəis müavini Süleyman Məmmədova qızı

**NİGAR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Nizami Səfərova və Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova anaları

**ƏSKİNAZ SƏFƏROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti AMEA Rəyasət Heyəti aparatı Akademik-katibin xidmətinin elmi katibi Gülarə Hacıyevaya həyat yoldaşı

**TAHİR HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Akademik Ziyad Səmədzadə, Fikrət Əzizov, Elxan Beşirov, Həsən Şirinov, Pənah Süleymanov və Rüfət Əliyev Azərbaycan Respublikası Maliyyə Nazirliyi Dövlət Maliyyə Nəzarəti Xidmətinin rəis müavini Süleyman Məmmədova qızı

**NİGAR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin I Mamalıq-ginekologiya kafedrasının əməkdaşları həmin kafedranın dosenti Afaq Səfərəliyevaya həyat yoldaşı

**RAUF MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5609
Sifariş 1989
Qiyməti 40 qəpik